# ELMİ İŞ

beynəlxalq elmi jurnal

## SCIENTIFIC WORK

International scientific journal

www.aem.az

AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

**AZƏRBAYCAN RESPUBLİKASI**

**THE REPUBLIC OF AZERBAIJAN**

# ELMİ İŞ

**Beynəlxalq elmi jurnal**
**İmpakt Faktor: 1.790**

**Cild: 16 Sayı: 1**

# SCIENTIFIC WORK

**International scientific journal**
**Impact Factor: 1.790**

**Volume: 16 Issue: 1**

**Bakı – Baku**
**2022**

Jurnal 25.04.2007-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

On 25.04. 2007, the journal was included in the register of Press publications of the Ministry of Justice of the Azerbaijan Republic. Registration № 2212

## Beynəlxalq indekslər / International indices

ISSN: 2663-4619
e-ISSN: 2708-986X
DOI: 10. 36719

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Press Avenue, 529,
“Azerbaijan” Publish House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99

**e-mail:**
elmmerkezi@gmail.com

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© www.aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor:**
**Mübariz HÜSEYİNOV**
tədqiqatçı
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCİD İD 0000-0002-5274-0356

**Founder and Editor-in-chief:**
**Mubariz HUSEYINOV**
researcher
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCİD İD 0000-0002-5274-0356

**Redaktor:**
**Dürdanə HÜMBƏTOVA**
filologiya üzrə fəlsəfə doktoru, dosent
durdanahumbatova@gmail.com

**Editor:**
**Durdana HUMBATOVA**
phd in philology, docent
durdanahumbatova@gmail.com

**Redaktor köməkçisi:**
**Səidə ƏHMƏDOVA**
seide-86@mail.ru

**Assistant editor:**
**Saidah AHMADOVA**
seide-86@mail.ru

**Dillər üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV** / Azərbaycan dili
**Prof. Dr. Abbas ABBASOV** / İngilis dili

**Language editors**

**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV** / Azerbaijani language
**Prof. Dr. Abbas ABBASOV** / English language

**Elmi sahələr üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA /** Humanitar və ictimai elmlər bölməsi
**Dr. Fuad RZAYEV /** Təbiət elmləri bölməsi
**Prof. Dr. Yaşar MEHRƏLİYEV /** Dəqiq elmlər bölməsi
**Assoc. Prof. Dr. Şahlar BABAYEV /** Texnika elmləri bölməsi

**Editors in scientific fields**

**Assoc. Prof. Dr. Durdana MAMMADOVA /** Department of Humanities and social sciences
**Dr. Fuad RZAYEV /** Department of Nature sciences
**Prof. Dr. Yaşar MEHRƏLİYEV /** Department of Exact sciences
**Assoc. Prof. Dr. Şahlar BABAYEV /** Department of Technical sciences

## REDAKSİYA HEYƏTİ

**Humanitar və ictimai elmlər bölməsi**

**Prof. Dr. Möhsün NAĞISOYLU**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet YÜCE**, Bursa Uludağ Unnveristeti / Türkiyə
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. İzzət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena QORBAÇEVA,** Həştərxan Dövlət Universiteti / Rusiya
**Prof. Dr. Şirindil ALİŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Prof. Dr. Boris KAYQORODOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Rüfət RÜSTƏMOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Pedaqoji Universiteti / Özbəkistan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Kazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Rafail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Flera SEYFULLİNA**, Kazan Federal Universiteti / Rusiya, Tatarıstan Respublikası
**Prof. Dr. Zahid MƏMMƏDOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Şəhla SƏMƏDOVA,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA,** Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Müseyib İLYASOV**, Azərba ycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Mönsüm ALIŞOV**, "İdrak" liseyi / Azərbaycan
**Prof. Dr. Abbas ABBASOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr.Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne American University / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖREA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

## Təbiət elmləri bölməsi

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL,** Selcuk Üniversiteti / Türkiyə
**Prof. Dr. Vaqif ABBASOV**, AMEA Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Georgi DUKA**, Moldova Elmlər Akademiyası / Moldova
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə
**Prof. Dr. Sabir HƏBİBOV**, Rusiya Tibbi-Texniki Elmlər Akademiyası / Rusiya
**Prof. Dr. İbrahim CƏFƏROV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Elçin AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Duyğu KILIÇ**, Amasiya Universiteti / Türkiyə
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Dr. Daşqın QƏNBƏROV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnklişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tedqiqat institutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevda TAHİRLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Unversiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
Dr. **Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

### Dəqiq elmlər bölməsi

**Prof. Dr. Məhəmməd MEHDİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV,** Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç

### Texnika elmləri bölməsi

**Prof. Dr. Elçin İSGƏNDƏRZADƏ**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti / Azərbaycan

## EDITORIAL STAFF

### Humanities and Social Sciences section

**Prof. Dr. Mohsun NAGISOYLU**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Ahi Evran University / Turkey
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Mehmet YUJE**, Bursa Uludagh University / Turkey
**Prof. Dr. Irina KREIDYCH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Izzet RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena GORBACHEVA,** Astrakhan State University / Russia
**Prof. Dr. Shirindil ALISHANOV**, Institute of Literature of ANAS / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Boris KAYGORODOV**, Astrakhan State University / Russia
**rof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vidas KAVALIAUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Rufat RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent Pedagogical University / Uzbekistan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Elshad MIRBASHIR OGLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Flera SEYFULLINA**, Kazan Federal University / Russia, Republic of Tatarstan
**Prof. Dr. Zahid MAMMADOV,** Azerbaijan State Economic University /Azerbaijan
**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA,** Astrakhan State University of Architecture and Construction Engineering **/** Russia
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Monsum ALISHOV**, Idrak Lyceum / Azerbaijan
**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc.Prof.Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Teachers' Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN,** Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan

**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the Uzbekistan Academy of Sciences / Uzbekistan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGLU**, Seljuk University / Turkey

## Natural Sciences section

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS / Azerbaijan
**Prof. Dr. Nikolai BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Georgi DUKA**, Moldovan Academy of Sciences / Moldova
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Sabir HABIBOV**, Russian Academy of Medical and Technical Sciences / Russia
**Prof. Dr. Ibrahim JAFAROV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Elchin AGAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Duygu KILIC**, Amasya University / Turkey
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Dr.Dashgin GANBAROV,** Nakhchivan State University / Azerbaijan
**Dr. Elcin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Cattle-breeding Scientific research institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevda TAHIRLI**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA,** Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Fuad RZAYEV**, Zoology Institute of ANAS / Azerbaijan

## Exact sciences section

**Prof. Dr. Mahammad MEHDIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal İnstitute of Technology / Sweden

## Technical sciences section

**Prof. Dr. Elchin ISGANDARZADE**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan State University of Architecture and Construction / Azerbaijan

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://www.doi.org/10.36719/2663-4619/74/7-14

**Ələkbər Həsən oğlu Cabbarlı**
Naxçıvan Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru, dosent
ecabbarli44@gmail.com

## NAXÇIVAN TARİXİNƏ BİR NƏZƏR

**Xülasə**

Qədim Şərq sivilizasiyaları ilə sıx bağlı olan Naxçıvan tarixi inkişafın gedişində dərin iz qoymuşdur. Bu diyarda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır.

Qədim diyar olan Naxçıvan ən qədim insanların ilk yaşayış məskənləri olmuşdur. Hətta Naxçıvan barədə Roma və yunan müəlliflərinin əsərlərinə də məlumatlar daxil edilmişdi.

Məqalədə qədim Oğuz yurdu Naxçıvanın bütün tarixi dövrlərinə toxunulmuş, ərazisi, tarixi-coğrafi şəraiti işıqlandırılmış, müxtəlif dövlətlərin tərkibində fəaliyyəti, əhalinin işğalçılara qarşı mübarizəsi, ictimai-iqtisadi, mədəni həyatı və s. məsələlər geniş şərh edilmişdir. Eyni zamanda, Naxçıvanın bu günkü tarixi və taleyi də geniş şəkildə işıqlandırılmış, ulu öndər Heydər Əliyevin Naxçıvandakı fəaliyyətindən də bəhs edilmişdir.

Qeyd edilir ki, 1990-cı il iyunun 22-də Naxçıvan diyarının böyük yetirməsi, görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi milli-demokratik hərəkatın yeni mərhələyə qədəm qoymasına səbəb oldu. Naxçıvanlılar Heydər Əliyevin simasında öz xilaskarını tapdı. Tezliklə xalqın yekdil səsi ilə Naxçıvan MSSR Ali Sovetinə, Azərbaycan SSR Ali Sovetinə deputat seçilən Heydər Əliyev respublika əhalisinin güvənc yerinə çevrildi. Beləcə, Naxçıvanda milli oyanışın əsası qoyuldu.

Müasir Naxçıvanın hərtərəfli inkişafı müstəqillik dövrünün qiymətli quruculuq və dövlətçilik salnaməsidir.

***Açar sözlər:*** *Azərbaycan, Naxçıvan, bəşər sivilizasiyası, Naxçıvan xanlığı, Atabəylər dövləti, Naxçıvan Konstitusiyası*

**Alakbar Hasan Jabbarli**

## A look at the history of Nakhchivan

**Abstract**

Closely connected with the ancient civilizations of the East, Nakhchivan has left a deep mark on the course of historical development. The rich history, scientific and cultural heritage of the Azerbaijan people has been formed in this land.

Nakhchivan, an ancient land, was the first settlement of the most ancient people. Information about Nakhchivan was even included in the works of Roman and Greek authors.

The article touches on all historical periods of the ancient Oghuz land of Nakhchivan, its territory, historical and geographical conditions, activities within different states, the struggle of the population against the occupiers, socio-economic, cultural life and so on. The issues have been widely commented on. At the same time, the current history and destiny of Nakhchivanhave been widely covered. Activities of great leader Heydar Aliyev in Nakhchivanhave also been discussed.

It is noted that the great political figure of the Nakhchivan land, prominent politician and statesmanHeydar Aliyev's arrival to the region on June 22, 1990, led the national-democratic movementto a new stage. Nakhchivanpeople found their savior in the personality of Heydar Aliyev. Heydar Aliyev, who was soon elected a deputy to the Supreme Soviet of the Nakhchivan Autonomous Soviet Socialist Republic and the Supreme Soviet of the Azerbaijan SSR by a unanimous vote of the

people, became a source of confidence for the people of the republic. Thus, the foundation of the national awakening was laid in Nakhchivan.

The comprehensive development of modern Nakhchivan is a valuable chronicle of the period of independence and statehood.

***Key words:*** *Azerbaijan, Nakhchivan, human civilization, Nakhchivan khanate, Atabey state, Nakhchivan Constitution*

Qədim türk-oğuz yurdu və tarixi Azərbaycan ərazisi olan Naxçıvan bəşər sivilizasiyasının ilkin məskənlərindən biridir. Azərbaycan arxeoloqlarının apardıqları qazıntılar nəticəsində sübut olunmuşdur ki, Naxçıvanda hələ Paleolit dövründə (qədim daş dövrü) ən qədim insanların ilk yaşayış məskəni olmuşdur. Bu diyarın müxtəlif yerlərindən, xüsusilə Qazma mağarasından (Şərur rayonu) həmin dövrə aid zəngin arxeoloji tapıntılar aşkar olunmuşdur.

Azərbaycanın digər bölgələri kimi Qədim Şərq sivilizasiyaları ilə sıx bağlı olan Naxçıvan tarixi inkişafın gedişində dərin iz qoymuşdur. Bu diyarda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır.

Naxçıvan Muxtar Respublikası Cənubi Qafqazın ən cənub rayonlarından olub, Kiçik Qafqazın cənub-qərb hissəsində yerləşir. Ərazi şimal və şimal-şərqdən Ermənistan, cənub və cənub-qərbdə İran İslam Respublikası, az bir məsafədə isə Türkiyə Respublikası ilə sərhədə malikdir.

Muxtar Respublikanın ümumi sahəsi 5,5 min kv.km-ə bərabərdir ki, bu da Azərbaycan Respublikası ərazisinin 6,2%-ni təşkil edir(1, s.23).

E.ə. XII-I minilliklərdə Naxçıvan ərazisində davamlı və intensiv yaşayış olmuşdur. Azərbaycan xalqının soykökünün formalaşmasında e.ə. IV-II minilliklərdə Naxçıvan ərazisində meydana çıxan iri tayfa ittifaqları mühüm rol oynamışdır. Türk mənşəli kaspi, kadusi, naxç tayfa ittifaqları məhz bu dövrdə yaranıb formalaşmışdır (2, s. 12).

Son dövrlərdə geniş miqyas alan araşdırmalara və tədqiqatçılar arasında getdikcə güclənən elmi qənaətə görə Naxçıvan şəhərinin tarixi xeyli qədimdir.

Naxçıvan şəhərinin tarixi barədə məxəzlərdə olduqca maraqlı və müxtəlif fikirlər mövcuddur. Hələ e.ə. I əsrdə yaşamış Roma yazıçısı Kvint Horatsi Flakk, onun müasiri olan yəhudi tarixçisi İosif Flavi öz əsərlərində Naxçıvanın adını çəkmişlər (3, s. 11).

Naxçıvanın adının çəkildiyi ən qədim yazılı qaynaq yunan coğrafiyaçısı Ptolomeyin "Coğrafiya" əsəridir. O, Naxçıvanın adını "Naxsuana" kimi qeyd edir (4, s. 2). Şəhər yunanca-"Naksuana", pəhləvicə – "Naxç", ərəbcə – "Nəşəva" və ya "Naxçuan", "Naxcuan" və ya "Naqşecahan" adlanmışdır. Bir sıra fars və türk mənbələrində Naxçıvan "Nəqşicahan" kimi göstərilir (5, s. 7).

Yaqut əl-Həməvi "Mucəm əl-buldan" əsərində yazır: "Nəşəva" Azərbaycan şə-həridir... O, xalq arasında Nəxcuan adı ilə məşhurdur, bəziləri ona Nəqcuan da deyir-lər". XIII əsr müəlliflərindən Məhəmməd ibn Nəcib Bəkran "Cahannamə" əsərində şəhərin adını həm "Naxçıvan", həm də "Nəşəva" şəklində vermişdir (6, s. 26).

Türk səyyahı Ö.Çələbi göstərir ki, Naxçıvan şəhəri Turan hökmdarı Əfrasiyab tərəfindən salınmışdır. Orta əsrlərin ərəb qaynaqlarında isə, şəhərin adı "Nəşava" kimi yazılsa da, H.Qəzvini, Katib Çələbi, Ö.Çələbi və b. bu yeri "Nəqşicahan" adlandırmışlar (7, s. 62). Osmanlı arxivlərində olan məlumatlarda isə bu ad fərqli adlarla yazılmaqla bərabər, bölgənin adının "Naxçıvan" şəklində yazılışı qəbul edilmişdir (8, s. 3).

Bundan başqa, A.Axundov Naxçıvan sözünün mənşəyini elam dilindəki "Nahhunte" sözü ilə əlaqədar izah edir. Onun fikrincə, bu ərazidə eramızdan 2-3 min il əvvəl elamlılar, sonralar isə midiyalılar yaşamış, burada yaranmış şəhərin adını elamlıların adı ilə adlandırmışlar. Şəhərin ilk adının "Nahhuntevan" olması, sonralar isə yerli türk əhalisi tərəfindən "Naxçıvan" şəklində işlədilməsi mümkündür. "Görünür, bu fonetik dəyişmədə Nuhun tufanı ilə əlaqədar rəvayətin və xalq etimologiyası dil hadisəsinin də (Naxçıvan-Nuhçuvan) təsiri olmuşdur". Naxçıvan toponimi əfsanəvi Nuh peyğəmbərlə bağlı "dünya tufanı" ilə də əlaqələndirilir. Bu el mülahizəsinə görə, "Naxçıvan" sözü üç hissədən – "Nax" (Nuh), türk dillərində isim düzəldən "çi" şəkilçisindən və yer, məkan bildirən "van" toponimik formatından ibarət olub, "Nuhçuvan" – "Nuhçuların məskəni", "Nuhun diyarı" deməkdir (9, s. 47, 50).

Son dövrlərdə "Naxçıvan" toponiminin mənşəyi ilə bağlı aparılan araşdırmalar bu sözün daha çox Nuh peyğəmbərin adı ilə bağlı olduğu qənaətini daha da gücləndirir. Bildirilir ki, bu söz məhz "Nuh" ifadəsi ilə bağlıdır və Naxçıvan – Nuhçuların, Nuh tərəfdarlarının məskəni deməkdir" (10, s. 13).

Orta əsrlər dövrünə aid salnamələrdə də Naxçıvanın "Nuhçıxan", "Nuhcahan", yəni Nuh şəhəri adlandırılması haqqında məlumatlara həddindən çox rast gəlinir.

XIX əsr rus müəlliflərinin əsərlərində Nuh peyğəmbərin Naxçıvan şəhərində məzarının və məzarüstü türbəsinin olması haqqında məlumatları və təsvirləri də nəzərə alsaq, əminliklə demək olar ki, "Naxçıvan" toponimi bilavasitə Nuh peyğəmbərlə bağlıdır ki, bu da Naxçıvan şəhərinin ən qədim yaşayış məskənlərindən və şəhərlərdən biri olduğu qənaətini təsdiqləyir.

E.ə. IX-VI əsrlərdə Naxçıvan ərazisi qədim Manna və Midiyanın tərkibində olmuşdur. E.ə. 633-cü ildə Naxçıvan skiflərin hücumuna məruz qalaraq xeyli zərər çəkmişdi. E.ə VI əsrin ortaları-e.ə. IV əsrin 30-cu illərində Naxçıvan Əhəmənilər dövlətinin hakimiyyəti altında, e.ə. IV əsrin sonları-e.ə. I əsrin I yarısında isə qədim Azərbaycan dövləti olan Atropatenanın tərkibində olmuşdur. Eramızın əvvəllərində Naxçıvan Albaniyada şəhər və vilayət olmuş, IV əsrdən Sasani dövlətinin tərkibinə daxil edilmişdir. Bu dövrdə Naxçıvan barədə Roma və yunan müəlliflərinin əsərlərinə də məlumatlar daxil edildi. İosif Flafi (e.ə. I əsr) və Klavdi Ptolemey (b.e. II əsr) öz əsərlərində Naxçıvanın adını çəkirlər.

VII-VIII əsrlərdə Naxçıvan ərəblər tərəfindən işğal edildi. 654-cü ildə Naxçıvan ərəb əmiri Həbib İbn Məsləmə tərfindən tutulmuş və Ərəb xilafətinin III əmirliyinin tərkibinə daxil edilmişdi (11, s. 93).

X əsrdə Naxçıvan diyarında əmin-amanlıq dövrü başlamış, həmin vaxtlarda "Naxçıvan şahlığı" adlı feodal dövlətinin əsası qoyulmuş və Naxçıvan şəhəri X əsrin 80-ci illərindən etibarən bu feodallığın paytaxtı olmuşdur. Bu feodal dövləti XI əsrin 60-cı illərinə qədər mövcud olmuş və dövlət Əbu Duləfilər tərəfindən idarə olunmuşdur (12, s. 14).

X əsrin sonundan başlayaraq Naxçıvan təqribən bir əsr ərzində Rəvvadilər dövlətinin tərkibində qaldı. XI əsrdə Azərbaycanın bir çox yerləri səlcuq türkləri tərəfindən tutuldu. 1064-cü ildə səlcuq hökmdarı Alp Arslan Naxçıvan sərhədində meydan sulayan Bizans ordularını məğlubiyyətə uğradıb, Naxçıvanı işğal etdi (13, s. 33). Beləliklə, Naxçıvan ərazisi Böyük Səlcuq dövlətinin tərkibinə daxil edildi.

Naxçıvanın bundan sonrakı dövrü bilavasitə Atabəy Şəmsəddin Eldənizin (1136-1175) əsasını qoyduğu Azərbaycan Atabəyləri – Eldənizləri dövləti ilə bağlıdır. Belə ki, XII əsrin I yarısında Səlcuq imperiyasının zəifləməsi və dağılması nəticəsində Yaxın Şərqdə qüdrətli Atabəylər dövləti təşəkkül tapdı. 1136-cı ildən 1175-ci illədək Naxçıvan bu dövlətin paytaxt şəhəri olur.

XIII-XIV əsrlər Naxçıvanın tarixində mürəkkəb, keşməkeşli dövrlərdən biri olmuşdur. 1221-ci ildə monqol hökmdarı Çingiz xanın (1155-1227) qoşunları Naxçıvanı dağıdaraq viranə qoyurlar. Ərazidəki Gilan, Naxçıvan, Qarabağlar, Sədərək xarabalığa çevrilir. 1225-ci ildə Naxçıvan cənub istiqamətindən Azərbaycana soxulan Xarəzm şahı Cəlaləddinin hücumlarına məruz qalır (14, s. 33). Onun Təbrizə yaxınlaşdığını eşidən Atabəy Özbək Naxçıvana, ordan da Əlincə qalasına çəkilib qalada sığınacaq tapır və çox keçmir ki, burada da ölür (11, s. 140). Beləliklə də, Azərbaycan Atabəylər dövlətinə son qoyulur.

Eldənizlər dövləti süqut etdikdən sonra, 1231-ci ildən başlayaraq Naxçıvan təqribən bir əsr ərzində monqolların hakimiyyəti altında olur. XIV əsrin ortalarından başlayaraq zəngin və strateji cəhətdən böyük əhəmiyyət kəsb edən Naxçıvan müxtəlif xarici işğalçılar Çobanilər, Cucilər, Cəlairilər, Müzəffərilər arasında mübarizə meydanına çevrilir və əldən-ələ keçir. 1386-cı ildə Naxçıvan və ətrafı Qızıl Orda hökmdarı Toxtamışın orduları tərəfindən vəhşicəsinə dağıdıldı. Az sonra Naxçıvan Əmir Teymurun hücumlarına məruz qaldı. Bütün Naxçıvanı, Azərbaycanı və Yaxın Şərqi ələ keçirən Teymur orduları Əlincə qalasını da mühasirəyə aldılar. Əlincə qalası 14 il ciddi müdafiə olunduqdan sonra, 1401-ci ildə daxili feodal çəkişmələri nəticəsində Teymur ordusu tərəfindən ələ keçirildi.

Naxçıvan bölgəsi Teymuri şahzadələri arasında gedən hakimiyyət uğrunda ciddi mübarizə nəticəsində yadelli hücumlara məruz qalmış və qarət edilmişdir.

XV əsrdə Naxçıvan bölgəsi əvvəlcə Qaraqoyunlu dövlətinin, 1468-ci ildən isə Ağqoyunlu dövlətinin tərkibində olmuşdur. Naxçıvanın Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmasını bu bölgədə həmin sülalə ilə bağlı çoxsaylı daş qoç heykəlləri və qəbirüstü sənədlərin tapılması da sübut edir (15, s. 86).

XVI əsrdə Naxçıvan Azərbaycan Səfəvi dövlətinin hakimiyyəti altında idi. 1501-ci ildə Şərur düzündə Səfəvi-qızılbaş və Ağqoyunlu qoşunları arasında baş verən toqquşmada səfəvi ordusu qalib gələrək Naxçıvanı tutdu. XVI-XVII əsrlərdə Osmanlı-Səfəvi müharibələri zamanı Naxçıvan dəfələrlə əldən-ələ keçərək dağıdıldı, qarət edildi. 1514-cü ildə Çaldıran döyüşündən sonra Osmanlı idarəsinə daxil olan Naxçıvan, "Naxçıvan sancağı" adı ilə Osmanlı idarə sisteminə daxil edildi (8, s. 3).

1603-cü ildə I Şah Abbas Naxçıvanı hakimiyyəti altına alıb hərbi düşərgəyə çevirdi. Onun idarəsi Maqsud Sultan Kəngərliyə həvalə olundu. 1605-ci ildə Osmanlı qoşunları Naxçıvanı zəbt edirlər və ərazi Osmanlı imperiyasının tərkibinə daxil edilir. Beləliklə, min illər boyu Azərbaycan dövlətlərinin tərkib hissəsi olmuş Naxçıvan diyarı XVI əsrin sonunda (1588-1603-cü illər) və XVIII əsrin əvvəllərində (1724-1735-ci illər) Osmanlı imperiyasının tərkibinə keçmiş və burada yenidən Osmanlı idarə sistemi tətbiq edilmişdir (16, s. 5).

Naxçıvan Səfəvilər dövlətinin tərkibində ikən, XVI əsrdə əvvəlcə mərkəzi Təbriz olan Azərbaycan, XVII əsrin II yarısından isə mərkəzi İrəvan şəhəri olan Çuxursəd bəylərbəyiliklərinin tərkibinə daxil idi. XVI-XVII əsrlərdə Naxçıvan hakimləri Kəngərli tayfa başçılarından təyin olunurdu (17, s. 78).

1736-cı ildə İranda qurulan Nadir imperiyasının tərkibinə qatılan Naxçıvan 1747-ci ildə bu imperiyanın dağılmasından sonra müstəqil feodal dövlətə – xanlığa çevrildi. Həmin il Kəngərli tayfa başçısı Heydərqulu xan Nadir şahın buradakı naibi Ağa Həsəni Naxçıvandan qovaraq özünü xan elan etdi. Naxçıvan şəhəri xanlığın paytaxtı oldu. 1747-1797-ci ilə qədər müstəqil bir xanlıq olan Naxçıvan xanlığı, 1828-ci ildə Rusiya tərəfindən işğal olunana qədər faktiki olaraq Qacarlar dövlətinin ucqarlarından birinə çevrilmişdir (18, s. 25).

1804-cü ildə I rus-İran müharibəsi 1813-cü ildə Xankəndi yaxınlığındakı Gülüstan kəndində imzalanan müqavilə ilə başa çatır, Naxçıvan İranın tabeliyinə keçir. Lakin bu müqavilə Rusiya ilə İran arasında Cənubi Qafqazla bağlı həlledici saziş olmur.

1826-1828-ci illər II rus-İran mühərbəsi rusların qələbəsi ilə başa çatdı və 1828-ci il fevralın 10-da Təbrizin 43 km-də yerləşən Turkmənçay kəndində sülh müqaviləsi imzalandı. Müqaviləyə görə Araz çayı sərhəd olmaqla Naxçıvan və İrəvan xanlığı Rusiyaya birləşdirildi (19, s. 105). Türkmənçay müqaviləsinin III maddəsində deyilirdi: "İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə İrəvan xanlığını və Naxçıvan xanlığını Rusiya imperiyasının tam mülkiyyətinə güzəştə gedir" (20, s. 148).

"Tarixi proseslərin gedişi ona gətirib çıxardı ki, 1813-1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycanı, onun tarixi torpaqlarını parçaladı, xalqımızı iki yerə böldü" (21, s. 24).

1828-ci ilin martında çar I Nikolayın göstərişi ilə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" adlanan inzibati vahid yaradıldı.

1841-ci ildə Naxçıvan torpaqları Gürcüstan-İmeretiya quberniyasının tərkibinə verildi (22, s. 26). 1850-ci ildə Naxçıvan, Şərur-Dərələyəz qəzaları və Ordubad dairəsi yeni yaradılan İrəvan quberniyasına birləşdirildi.

Çarizmin XIX əsrdə ermənilərin İrandan və Türkiyədən Cənubi Qafqaza köçürülməsi siyasəti Rusiyanın gələcək imperialist planlarının həyata keçirilməsi üçün bölgədə daha münasib etnik-sosial və ictimai-siyasi zəmin hazırlamaq məramına xidmət edirdi. Ümumiyyətlə, Cənubi Qafqazda XX əsrin əvvəllərindən başlayaraq milli-etnik zəmində baş verən münaqişələr göstərdi ki, çarizm bütövlükdə Cənubi Qafqazı xristianlaşdırmaq siyasəti yürütməklə bu bölgəni birdəfəlik İranın və Türkiyənin nəzarətindən qoparmaq və belə bir perspektivin olmamasını təmin etmək üçün ermənilərdən bir vasitə kimi istifadə etmişdi.

Belə bir şəraitdə 1890-cı ildə yaradılan avantürist, qatı millətçi və terrorçu erməni "Daşnaksütyun" partiyası Türkiyənin şərq ərazilərində "Böyük Ermənistan" yaratmaq xülyası puça çıxdıqdan sonra XX əsrin əvvəllərindən başlayaraq Cənubi Qafqazda Azərbaycan torpaqları hesabına qondarma erməni dövlətinin yaradılmasına çalışırdı. XX əsrin əvvəlləri üçün Azərbaycanın, o cümlədən onun ayrılmaz tarixi torpaqları olan Naxçıvanın ictimai-siyasi, demoqrafik, etnik-sosial tarixi bilavasitə ermənilərin törətdiyi qanlı qırğınlar, deportasiya, vəhşi terror və insanlığa sığmayan digər cinayətləri ilə müşayiət olunurdu.

Ermənilər azərbaycanlılara qarşı qanlı soyqırım və deportasiya siyasətinin ilk mərhələsini çarizmin fəal dəstəyi ilə 1905-1907-ci illərdə həyata keçirdilər. Hadisələr nəticəsində Bakıda və Naxçıvanda, Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında yüzlərlə azərbaycanlı kəndi dağıdıldı, on minlərlə günahsız insan erməni vəhşiliyinin qurbanı oldu.

Üç əsrlik Romanovlar monarxiyasının süqutu və Rusiyada 1917-ci il fevral burjua-demokratik inqilabının qələbəsindən sonra qurulan Müvəqqəti hökumətin Naxçıvanda da yerli orqanları təşkil edildi. Eyni zamanda, Naxçıvan şəhərində, Culfada, Şahtaxtı dəmir yolu stansiyasında və başqa yerlərdə sovetlər yaradıldı. Naxçıvanda ikihakimiyyətlilik əmələ gəldi. 1917-ci ilin sonu-1918-ci ilin əvvəllərində Naxçıvan diyarında siyasi vəziyyət getdikcə mürəkkəbləşir, hakimiyyəti ələ keçirmək uğrunda mübarizə kəskinləşirdi.

Yaranmış qarışıq siyasi vəziyyətdə Azərbaycan torpaqlarını qəsb etmək istəyən silahlı erməni dəstələri yenidən qanlı cinayətlər törətməyə başladılar. Ermənilər Zəngəzuru işğal etdikdən sonra, 1918-ci il fevralın sonları-martın əvvəllərində Naxçıvan bölgəsinin dinc əhalisinə qarşı genişmiqyaslı təcavüzə başladı.

Bölgəni erməni təcavüzündən qorumaq məqsədi ilə 1918-ci ilin noyabrında Naxçıvan Şərur-Dərələyəz qəzaları, Ordubad, Culfa, Vedibasar, Qəmərli və Mehri əyalətlərindən ibarət "Araz-Türk Respublikası" yaradıldı. Respublika 1919-cu il yanvarın 4-də ilk hökumət bəyannaməsində elan etdi ki, Naxçıvan həmişə özünü Azərbaycanın tərkib hissəsi hesab etmişdir və Ermənistanın hərbi təcavüzünə qarşı Azərbaycandan kömək gözləyir (18, s. 199). Naxçıvanın və əhatə etdiyi digər ərazilərin erməni vəhşiliyindən müdafiəsinin təşkili üçün yaradılan bu dövlət cəmi bir neçə ay mövcud oldu. Belə ki, 1919-cu ilin yanvar ayında ingilislər Naxçıvana gəldikdən sonra Araz-Türk Respublikasının fəaliyyəti zəiflədi və həmin ilin aprel ayının əvvəllərində süqut etdi.

Araz-Türk Respublikasının ləğv edilməsi Azərbaycan hökumətini narahat edir və hiddətləndirirdi. Cümhuriyyət hökuməti Naxçıvanı bilavasitə erməni təcavüzün-dən qorumaq iqtidarında olmadığından və bunun üçün hərbi imkanlar da məhdud olduğundan, hökumət heç olmasa diplomatik vasitələrlə Naxçıvanın işğalının qarşısını almağa çalışırdı (24, s. 72). 1919-cu il mayın 3-də Azərbaycan Cümhuriyyətinin İrəvandakı diplomatik nümayəndəsi M.Təkinskinin Ermənistanın xarici işlər nazirinə təqdim etdiyi bəyanatda erməni qoşunlarının "Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana" göndərilməsinə qarşı ciddi etiraz ifadə edilirdi (25, s. 69).

Naxçıvanın 1918-1920-ci illərdə düşmən təcavüzündən müdafiəsində Türkiyənin, türk hərbiçilərinin xüsusi xidmətləri olmuşdur. Həm 1918-ci ildə genişlənən erməni təcavüzünün qarşısının alınmasında, həm Araz-Türk Respublikasının yaradılmasında, həm də 1919-cu il iyulun 18-25-də Naxçıvanda erməni idarəçiliyinin ləğv edilməsində Türkiyə naxçıvanlılara fəal hərbi-siyasi yardım göstərmişdi. 1919-cu ilin avqustundan 1920-ci ilin yanvar ayınadək Azərbaycan hökumətinin, yerli rəhbərliyin və naxçıvanlıların birgə gərgin mübarizəsi nəticəsində bölgəni yenidən erməni idarəçiliyinə təslim etmək məqsədi güdən Naxçıvanda Amerika general-qubernatorluğunun yaradılması səylərinin də qarşısı qətiyyətlə alındı (23, s. 214).

1918-1920-ci illərdə bütövlükdə Azərbaycan xalqına və torpaqlarımıza qarşı genişlənən erməni təcavüzü, yürüdülən soyqırım və deportasiya siyasəti Naxçıvanda da öz ağır izlərini buraxmışdı. Türkiyə mənbələrinin məlumatına görə, həmin illərdə Naxçıvanda 73727 nəfər erməni vəhşiliyinin qurbanı olmuşdu(23, s. 225).

1920-ci ildə bölgədə yeni siyasi şərait yarandı. Həmin il aprel ayının 28-də Azərbaycan, iyul ayında isə Naxçıvan rus-sovet qoşunları tərəfindən işğal edildi. 1920-ci il iyulun 28-də Naxçıvan Sovet Respublikası elan edildi (26, s. 15). Lakin sovet Rusiyası Azərbaycan torpaqlarının ermənilərə verilməsi ilə bağlı siyasət yürütməyə başladı. Hətta iş o yerə gəlib çatmışdı ki, daşnaklar sovet hökumətinin elə ilk günlərində Naxçıvanın ermənilərə verilməsi ilə bağlı əvvəllər belə səsləndirmədikləri ultimativ tələblər də irəli sürmüşdülər Lakin yenə də naxçıvanlıların qətiyyətli müqaviməti, habelə sovet qoşunları ilə bərabər bölgədə hələ də 8 minədək türk hərbiçisinin qalması son nəticədə daşnakların planlarının iflası ilə nəticələndi. Azərbaycanın Ədliyyə Komissarı Behbud ağa Şahtaxtinskinin apardığı işlər nəticəsində, daşnak hökumətinin süqutundan sonra Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də verdiyi bəyanatla Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdığını və ona qarşı ərazi iddialarından imtina etdiyini bildirdi (23, s. 233).

1921-ci ilin yanvar ayında Azərbaycan, Ermənistan və RSFSR nümayəndələrinin Azərbaycan və Ermənistan inqilab komitələrinin bəyanatlarına münasibətlə bağlı keçirdikləri rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizi diyarın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi (27, s. 341-342). Səsvermənin nəticələri 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələrində əks olunmuş müvafiq maddələrdə də öz əksini tapdı. 1921-ci ilin mart ayının 16-da RSFSR ilə Türkiyə arasında Moskvada imzalanan müqavilənin (4, s. 84-87) 3-cü maddəsinə əsasən, "danışıq aparan tərəflər müqavilənin 1 (C) əlavəsində müəyyən edilən sərhədlər daxilindəki Naxçıvan ərazisinin, qəyyumluğunu üçüncü bir dövlətə heç bir vaxt güzəştə getməməsi şərti ilə, Azərbaycanın tərkibində muxtar bölgə təşkil edilməsi barəsində razılığa gəlmişlər".

Naxçıvanın muxtariyyət statusunun möhkəmləndirilməsində növbəti mühüm addım 1921-ci il oktyabrın 13-də bir tərəfdən Türkiyə hökuməti, digər tərəfdən Azərbaycan, Ermənistan və Gürcüstan sovet respublikalarının Rusiyanın iştirakı ilə bağladıqları Qars müqaviləsi (28, iş 18, v. 135-145) oldu. Müqavilənin 5-ci maddəsində deyilirdi: "Türkiyə hökuməti, Azərbaycanın və Ermənistanın sovet hökumətləri razılığa gəlirlər ki, Naxçıvan vilayəti, bu müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın qəyyumluğu altında muxtar ərazi təşkil edir".

Naxçıvan muxtariyyət statuslu ərazi kimi 1920-1923-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-1924-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924-cü il fevralın 9-dan 1990-cı il noyabrın 17-dək Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ilin noyabrından isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Tarixən olduğu kimi, sovet hakimiyyəti illərində də Naxçıvanın ictimai-siyasi, sosial-iqtisadi və maddi-mədəni tarixi bilavasitə Azərbaycanın tarixi inkişafı ilə, bütövlükdə respublikada baş verən hadisələrlə bağlı olmuşdur. Bu baxımdan 1920-1930-cu illər Naxçıvanın da tarixində ən ağır, faciəli illər kimi qalmışdır. Belə ki, ötən əsrin 20-ci illərinin sovet hakimiyyəti quruculuğunun məşəqqətli mərhələsi Naxçıvanda da yaşanmış, 30-cu illərin repressiyası, bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da öz ağır izlərini buraxmışdı. II Dünya müharibəsi başlayanda Sovet İttifaqının digər xalqları kimi, azərbaycanlılar da, o cümlədən Naxçıvan torpağının yüzlərlə yetirmələri də silaha sarılıb alman faşizminə qarşı müharibəyə qoşuldular.

Müharibə başa çatdıqdan sonra, xüsusən 60-70-ci illərdə Naxçıvan diyarı xeyli inkişaf etdi. 1950-ci ildə sənaye məhsulu istehsalı 1940-cı il səviyyəsini 1,4 dəfə üstələdi. Bu dövrdə elektrik enerjisi istehsalı 4 dəfədən çox artdı. Naxçıvan şəhərində mebel fabriki, mərmər zavodu, çörək zavodu və ət-süd kombinatı işə salındı. Ordubad ipək fabriki yenidən quruldu. Şərur rayonunda elektrik şəbəkələri, Qaraçay və Gümüşlü dağ mədənləri, Şahbuz rayonunda Badamlı mineral sular zavodu və s. sənaye müəssisələri tikilib istifadəyə verildi.

XX əsrin 60-70-ci illəri üçün xalq təsərrüfatının ayrı-ayrı sahələrinin intensiv inkişafı, sənaye müəssisələrinin, əsaslı tikintinin maddi-texniki bazasının möhkəm-ləndirilməsi, əhaliyə göstərilən bütün xidmət növlərinin daha da yaxşılaşdırılması səciyyəvi idi (15, s. 120).

Lakin XX əsrin 80-ci illərinin sonunda bütün SSRİ-də, Azərbaycanda kəskinləşən sosial-siyasi və iqtisadi problemlər Naxçıvanda da özünü bütün cəhətləri ilə göstərirdi. Bu zaman sovet imperiyasının süquta getdiyi, Azərbaycana qarşı daşnak təcavüzünün gücləndiyi bir şəraitdə Naxçıvan böyük əzm və birlik nümayiş etdirdi. 1989-cu il dekabrın sonlarında başlanan sərhəd hərəkatı, 137 km məsafədə sovet-İran sərhəd qurğularının sökülməsi milli-demokratik hərəkatın yüksə-lişindən xəbər verirdi. 1990-cı il yanvarın 19-da, qanlı Bakı gaciəsindən bir neçə saat əvvəl ermənilərin muxtar respublikanın Sədərək qəsəbəsinə mütəşəkkil hücumu baş-landı. Həmin gün xalqın tələbi ilə Naxçıvan MSSR Ali Soveti SSRİ-nin tərkibindən çıxmaq kimi o zaman üçün misli-bərabəri olmayan tarixi bir qərar qəbul edərək bunu kütləvi informasiya vasitələri ilə bir neçə dildə dünyaya bəyan etdi (3, s. 34).

1990-cı il iyunun 22-də Naxçıvan diyarının böyük yetirməsi, görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi ilə milli-demokratik hərəkat yeni mərhələyə qədəm qoydu. Naxçıvanlılar Heydər Əliyevin simasında öz xilaskarını tapdı. Tezliklə xalqın yekdil səsi ilə Naxçıvan MSSR Ali Sovetinə, Azərbaycan SSR Ali Sovetinə deputat seçilən Heydər Əliyev respublika əhalisinin güvənc yerinə çevrildi. Naxçıvanda milli oyanışın əsası qoyuldu. Bütün bunların sayəsində 1993-cü ildə Naxçıvan artıq bütün bölgədə milli-demokratik hərəkatının gücləndiyi bir bölgə idi. Muxtar Respublika 1993-cü ilə nisbi ictimai-siyasi sabitlik şəraitində qədəm qoy-du. İlin birinci yarısında muxtar respublika

xarici, xüsusilə qonşu Türkiyə və İranla əlaqələrinin inkişafının yeni mərhələsinə qədəm qoymuş, müvafiq olaraq fevral-mart aylarında həmin dövlətlərin Naxçıvanda konsulluqları açılmışdı. Bakıdakı bir sıra xa-rici ölkə səfirliklərinin nümayəndələri Naxçıvana gələrək Naxçıvan MR Ali Məcli-sinin Sədri Heydər Əliyevlə müxtəlif sahələr üzrə danışıqlar aparmışdılar.

1993-1995-ci illərdə Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildikdən sonra Naxçıvan Muxtar Respublikası da sabit inkişaf yoluna qədəm qoydu. 1995-ci il noyabrın 12-də keçirilmiş parlament seçkiləri nəticəsində Naxçıvan MR Ali Məclisinin yeni tərkibi formalaşdı. 1998-ci ildə qəbul edilən Naxçıvan MR-in Konstitusiyası Qanun vasitəsi ilə Demokratiya uğrunda Avropa Komissiyası (Venesiya Komissiyası) tərəfindən Avropanın digər muxtariyyətləri üçün model kimi göstərildi (29, s. 60).

Düşmən qarşısında alınmaz qalaya çevrilmiş müasir Naxçıvanın hərtərəfli inkişafı müstəqillik dövrünün qiymətli quruculuq və dövlətçilik salnaməsidir. Bu gün muxtar respublikada görülən işləri, sosial-iqtisadi, elmi-mədəni, tikinti, sənaye və kənd təsərrüfatı, həmçinin turizm, nəqliyyat və kommunikasiya, infrastruktur sahələrində qazanılan uğurları hər kəs görür və qiymətləndirir. İndi bu qədim diyara yolu düşən yerli və xarici qonaqlar da muxtar respublikanın bütün sahələr üzrə nümunə gücündə olduğunu söyləyirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu, məni çox sevindirir. Çünki bu, Heydər Əliyev siyasətinin təntənəsidir".

## Ədəbiyyat

1. Naxçıvan tarixu. Üç cilddə, Icild. Naxçıvan: Əcəmi, 2013, 452 s.
2. Naxçıvan Muxtar Respublikası – 80. Tarixi-statistik məcmuə (Məcmuənin ümumi rəhbəri V.Talıbov, İ.Hacıyev, B.İsmayılov). Bakı: Səda, 2004, 205 s.
3. 3.Hacıyev İ.M, Məmmədov Ş.A. Naxçıvan və naxçıvanlılar. Bakı: Elm, 2001, 280 s.
4. Hacıyev İ.M., Amanoğlu E.Q. Tarihte ve günümüzde Nahçivan. Ankara: Ankara Universitesi Basımevi, 1998, 92 s.
5. Naxçıvan Muxtar Respublikasının tarixi, siyasi-iqtisadi bələdçi kitabı. Naxçıvan: Qeyrət, 1998, 64 s.
6. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerkləri. Bakı: Elm, 1977, 160 s.
7. Naxçıvan ensiklopediyası: 2 cilddə, I c., Bakı: 2005, 356 s.
8. Osmanlı Arşiv Belgelerinde Nahçivan. Proje yöneticisi Yusuf Sarinay. İstanbul: 2011, 568 s.
9. Axundov A. Naxçıvan sözünün mənşəyi. Naxçıvan tarixinin səhifələri. Bakı: Elm, 1996, 226 s.
10. Talıbov V. Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan / Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan (24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2010, s. 10-17
11. Bünyadov Z. M. Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər). Bakı: Elm, 1985, 268 s.
12. Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, 220 s.
13. Səfərli F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Elm, 2003, 392 s.
14. Piriyev V. Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlərdə). Bakı: Elm, 2004, 126 s.
15. Əliyev V.H. Naxçıvan Azərbaycanın tarixi diyarıdır. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2002, 320 s.
16. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Elm, 2001, 374 s.
17. Piriyev V. Azərbaycanın tarixi coğrafiyası. Bakı: Araz, 2002, 152 s.
18. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı, XIX əsrin I qərinəsi). Bakı: Elm, 1995, 96 s.
19. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, 120 s.
20. Şükürov K. Türkmənçay – 1828. Tarixi xronika. Bakı: Çaşıoğlu, 2006, 188 s
21. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Naxçıvan: "Əcəmi" NPB, 2001, 192 s.
22. Kazımov İ.F. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı: Elm, 2007, 175 s.

23. Cəfərli E.Y. Naxçıvanda Erməni-Azərbaycan münaqişəsi. Bakı: Nurlan, 2009, 280 s.
24. Zamanov E. Cənubi Qafqazda ictimai-siyasi vəziyyət və Azərbaycanın xarici siyasəti (1918-1920-ci illər). Bakı: Elm və təhsil, 2011, 176 s.
25. Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən Bakı: Azərnəşr, 1994, 124 s.
26. Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı: Səda, 1999,
27. 127 s.
28. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər) Bakı: BDU nəşriyyatı, 1996, 385 s.
29. NMRDA, f. 314, s. 5, iş 1-72
30. Naxçıvan MR – 85. Naxçıvan MR Ali Məclisi. Naxçıvan: "Əcəmi", 2009, 99 s.

Göndərilib: 30.12.2021 Qəbul edilib: 17.01.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/74/15-20

**Vasiliy Nikolayevich Hapov**
National Institute of Fine Arts
and Design named after Kamoliddin Bekhzod
Senior Lecturer
Farziyo5690@gmail.com

# PAINTING - THE ART OF COLOR

**Abstract**

In this article, the author describes the possibilities of color and impression, the main idea of the composition through color, the complex world of human emotions and character, the techniques, methods and materials used in painting, as well as the types of painting and the history of painting, additionally also reveals the freedom and full power and color necessary for the artist in the painting to highlight the main idea of the composition, to emphasize the important details, to give the depth of the distance or to give the image flatness, and also it should be noted that the author also pointed out that the image of form and distance, images and movements, which are the most important distinguishing features of painting, can only be seen through color.
***Key words:*** *Painting, images, images, miniatures, icon painting, decorative patterns, theater - decoration, history of painting, the image of form and distance, distinguishing features of painting, monumental painting, decorativeness and the mix of colors*

**Vasiliy Nikolayeviç Hapov**

**Rəngkarlıq – rəng sənəti**

**Xülasə**

Müəllif bu məqalədə rəng və təəssürat imkanlarını, rəng vasitəsilə kompozisiyanın əsas ideyasını, insan duyğularının və xarakterinin mürəkkəb dünyasını, rəngkarlıqda istifadə olunan texnika, üsul və materialları, eləcə də rəngkarlığın növlərini və rəssamlıq tarixi, əlavə olaraq, kompozisiyanın əsas ideyasını , vacib detalları vurğulamaq, məsafənin dərinliyini vermək və ya təsvirə düzlük vermək məqdədilə rəssam üçün lazım olan sərbəstliyi və tam gücü və rəngi ortaya qoyur və həçinin qeyd edək ki, müəllif həm də rəngkarlığın ən mühüm fərqləndirici xüsusiyyətləri olan forma və məsafənin, obrazların və hərəkətlərin obrazının yalnız rəng vasitəsilə görünə biləcəyinə diqqət çəkib.
***Açar sözlər:*** *Rəngkarlıq, təsvirlər, miniatürlər, ikona rəsmləri, dekorativ naxışlar, teatr - dekorasiya, rəssamlıq tarixi, forma və məsafənin təsviri, rəngkarlığın fərqləndirici xüsusiyyətləri, monumental rəngkarlıq, dekorativlik və rəng qarışığı*

Painting is the art of painting. Painting is a type of fine art that reflects real life and influences the thoughts and feelings of the audience.

A work of art on a surface, painted with paints (watercolor, tempera, watercolor, gouache, etc.) is called painting. The images in the painting are very bright and spectacular. Artists create their works with paintings and plastic tools. Although they use the possibilities of pencil and composition, one of the most effective means of painting is color. Images in the painting are created using paints that form a continuous layer of paint on the image level. Even if there are still untouched areas on the paper in the watercolor painting, it does not affect the continuity of the image, because the paints absorb and mix with each other.

The pictorial and expressive potential of color is used in painting with the freedom and full power necessary for the artist. Color can be used to highlight the main idea of the composition, to highlight important details, to give the depth of the distance, or to give the image flatness. The most important distinguishing feature of painting is that the image of shape and distance, images and movements can be seen only through color.

Painting reflects the complex world of human emotions and character, as well as the subtle changes of nature, the ability to convey fantastic images and philosophical ideas. All this is given through the

genres of painting. The diversity of objects, events and happenings in the world and the growing interest of artists in them led to the emergence of different genres in painting in the XVII century. These were the genres of portrait, landscape, still life, animalistic, legendary, historical, superstitious and every day. Genres or their elements may interfere in a painting. For example, a still life and a landscape can successfully complement a portrait.

Painting is divided into bench and monumental painting.

The word "monumental" means very large. Monumental painting is a large painting (fresco, panel, etc.) painted on the interior or exterior walls of buildings. Monumental painting cannot be separated on its basis (walls, base, ceiling, etc.). Themes for monumental paintings are chosen with great care. For this, historical events, heroic deeds, folk tales and so on are selected. Panels, mosaics and stained glass are also directly connected with monumental painting. These art forms are decorative painting and decorative art. Here the unity of style and imagery of monumental painting and architecture is important. There are also types of painting, such as miniatures, icon painting, decorative patterns, theatrical decoration. Each type of painting is distinguished by its performance techniques and specifications for solving artistic and figurative tasks.

The art of painting an icon has played a major role in the history of painting. This art was born in Byzantium in the IV century and spread throughout the Orthodox world. Icons serve the world, depicting only images from sacred religious writings. The icons in the mausoleums form a holistic composition with architectural, decorative-applied art. The images in the icon have a great emotional and figurative effect under the influence of flashing lights and candles in religious ceremonies, as well as religious sayings.

Icons are a work of painting that can give divine beauty. The color of the icons is conditional and decorative, it gives a divine idea, not real life. It also reflects the aesthetic ideals of the people. Ancient Russian icons are works of art of great artistic value to world art. Artists such as F.Grek, A.Rublev, Dionysius are considered to be the most prominent representatives of the art of icon painting.Miniature art is a small work of fine art, characterized by its conditionality, decorativeness, originality of shape, texture and decoration. In the Middle Ages, images in manuscripts led to the emergence of miniature art.

In the Middle Ages, book miniature art flourished in the Middle East, Central and Central Asia, Iran, India, Byzantium, Ancient Russia and Eastern Europe. Kamoliddin Behzod, Mahmud Muzakhhib, Murad Samarkandiy and a number of other artists who lived and worked during this period created unique examples of Oriental miniature art. Among them, the activity of Kamoliddin Behzod (about 1466-1535) is especially noteworthy. Kamoliddin Behzod was born in Herat. Here Hussein Boykaro worked in the library. After the conquest of Khorasan by Shaibanikhan in 1507, Behzod moved to Bukhara, where he lived and worked until 1522 and created his famous portrait of Shaibanikhan. He lived and worked in Tabriz (1522-1524) and later in Herat.

Growing up under the care of the great Alisher Navoi, Behzod Sa'di painted many works on "Boston", "Gulistan", Nizami's "Hamsa", Hisrav Dehlavi's "Hamsa", Sharafiddin Ali Yazdi's "Zafarnoma".

He decorated Navoi's epics with wonderful pictures. Behzod's creative plans were later continued by his students Qasim Ali, Mahmud Muzahhib, Mulla Yusuf and others. Medieval book miniatures still amaze us with their beauty, brightness and purity of colors, complexity of decorations, interesting images.

Another type of painting is decorative painting.

Different paintings and monumental paintings are called independent paintings. Decorative painting combines different types of ornaments in architectural structures and decorative-applied arts.

Architectural decorative decoration can be done on the wall, dome, facade and other elements of the building or on the canvas.

Theater decoration is also one of the types of painting. His task is to create an image of the play. The artistic decoration of the play is also called scenography.

Painting plays a very important role in creating a variety of scenery for the theater. He can accurately describe the place, time, period, style and genre of the work of art on the stage. The decoration of the

theater depends not only on the nature of the work, but also on the direction of the play and the individual creative approach of the artist. That is why a single play performed in different theaters has different decorations and different meanings.

Nowadays, there are various trends and currents in the art of theater and decoration.

While some artists continue the realistic traditions of decorative painting, others are shape, color. They carry out various researches using light and space.

Some use non-traditional materials with different textures (plastic, metal, arch, bone, etc.).

Nowadays, laser effects, fluorescent paints, video equipment and computer graphics are also used.

One of the peculiarities of decorative painting is that it is perceived in light conditions, in a clear scene, and it can be in motion. Synthesis in art is important in theater: the dynamic construction of the scenery must match the music and the rhythm of the stage movement. The whole image of the play is based on drama, music, lighting, scenery, costume and make-up.

Depending on the technique, methods and materials used, painting can be divided into the following types: watercolor, tempered, wax (encaustic), enamel, glue, dry plaster, watercolor (fresco) and others. In some cases, it is difficult to separate the painting from the graphics.

Painting is divided into single-layer, that is, quick-finishing and multi-layered and subtle nuances and beautiful colors that can give beautiful colors.

The artist finds the color needed for painting in the palette, and then this paint turns into a color in the plane of the painting. Here it creates a color scheme - coloring. Depending on the mix of colors, it will be warm and cold, happy and sad, calm and active, bright and dark.

From the history of painting

Painting is a very ancient art. Its foundations begin with rock images. Artists of ancient times were able to achieve a great impression in the works of painting, due to the great attention paid to nature, as well as innovations in painting technology. In the Middle Ages, the creation of paintings of various genres enriched the history of painting. Over the last centuries, the creative pursuits of artists in various currents and directions have created many new trends in painting (from realism to abstractionism). In the works of the Lower Paleolithic people, their ideas about the animal world and nature were reflected. These images were mostly hunting scenes. Not only paintings, but also graphics and reliefs are preserved on the rocks. Primitive rock paintings still amaze us with their perfection, animal anatomy, movement, wool texture and imagery. Images are one of the main means of transmitting our spiritual culture from generation to generation.

In ancient times, the artist tried to depict the world as he saw it. The principles of light and shadow, the elements of perspective, the emergence of volumetric-spatial painting were associated with them. Greek artists studied the structure, proportions and plasticity of the human body. The artists managed to depict realistic realistic depictions of man in Greek vases in frescoes. New possibilities of depiction of being appeared in paintings. Dwellings, mausoleums, temples and other structures are decorated with paintings. He created art, composition with architecture and sculpture.

Medieval painting served as a cathedral in the Romanesque period, which had a religious meaning, and mainly in the Gothic period, so only the cathedrals were decorated with paintings. 6. The variety of colors in it, mainly the use of local colors, is distinguished by the effectiveness of the contours. The background of the paintings and frescoes was conditional, neutral or golden, the symbolism of colors played a big role.

Stained glass plays a major role in Gothic painting. In the mysterious shade of the interior, the stained glass windows that fill the windows are bright blue, yellow and red. He gave a special spiritual condition. Today, the most beautiful examples of stained glass are preserved in the Cathedral of Chartres.

The Gothic period was the heyday of book miniatures and other decorative and applied arts. Portraits of the Lower Gothic period are distinguished by their individual features, the height of their images. In Gothic art, lyricism and tragedy in psychological depression, high spirituality and social satire, clear life corrections, and fiction have been organically linked. Attitudes towards artists have changed in society. Their hard work began to be taken into account.

The Renaissance is one of the greatest periods in the development of world art. The Renaissance was a period of transition in the history of culture of Western and Central Europe from medieval to modern culture (in Italy - XIV-XVI centuries, in other countries - XV-XVI centuries). The ideals of the Renaissance were seen on the basis of the humanist worldview.

In the new historical epoch, interest in the heritage of the ancient period increased. Artists not only copied works of that period. Probably in a new position. The principles of humanistic art have been developed, aimed at the study of man and the world around him. The real world and man have risen to the skies as the greatest wealth.

This new system has taken its rightful place in the plastic art, which has aroused much interest. Among the types of fine arts, painting is the most important. There was a growing interest in monumental (fresco) painting. Secular harmony, anthropocentrism (in the center of the human universe) are reflected in portraits, domestic and historical scenes in paintings on religious and mythological themes. These ideas are fully reflected in the work of Leonardo da Vinci. For example, the work "On the Mount" (Mona Lisa) can be seen as a symbol of that period. The painters depicted the Madonna with great skill. They sang of worldly beauty through these bright, memorable images. At the heart of the work of Renaissance artists was an independent, well-developed personality. The new imaging system was based on the study of nature. Mazachcho was the first to put forward the problem of understanding volume and using it in light and shadow. Science-based linear and aerial perspectives, light-shadow laws have been created. This had a great impact on the further development of European art (France, Spain, Germany, England, Russia).

The great people of the Renaissance: Leonardo da Vinci, Raphael, Michelangelo, Giorgione and Titian, Tintoretto in their works reflected the new worldview of the era.

The development of art in the Netherlands, France and Germany (XV-XVI centuries) is called the Northern Renaissance. The work of painters Jan Van Eyck and the great P. Brueghel was the pinnacle of the art of that period. In Germany, one of the great artists of the German Renaissance was A.Dürer.

The Renaissance in spiritual culture and art had an impact on the further development of European art. Interest in him is still alive today. In the XVII-XVIII centuries, the process of development of European painting became more complex, and national schools with their own traditions and characteristics emerged. Psychological problems deepen in painting. The appeal to the human environment, to everyday life and to real events has led to the emergence of genres in painting. These genres were landscape, still life, portrait, domestic genre, and so on. Different styles of art have been created. The Baroque style was formed in European art from the end of the 16th century to the middle of the 18th century. He was born in Italy and spread to other countries after the Renaissance.

The main features of the Baroque style are solemnity, grandeur, dynamics. In Baroque-style works of art, the essence of life - vision - is reflected in action.

Baroque art is an art that focuses directly on human psychology, on its emotions. In it, expressive lines and light-shadows are taken in a very sharp form, which further enhances the impact of the composition of the work.

It should be noted that in the Baroque style, different arts are combined into a single ensemble. In particular, architecture, sculpture, painting and decorative arts are formed together. The pursuit of synthesis in art is one of the hallmarks of Baroque.

The Baroque style sang of the greatness of authority and church. At the same time, the complexity of the worldview, the infinity and diversity of the world, its variability were reflected in the painting. In Baroque art, man is portrayed as a part of the world, a complex person.

A feature of Baroque is that it renounces the renaissance harmony in order to enter into emotional contact with the audience.

Monumental-decorative compositions on religious and mythological themes, portraits for interior decoration took the leading place in the visual clock.

Rococo - one of the styles of European art of the XVIII century (the second quarter and the middle of the XVIII century) appeared in France and got its name from one of the main elements of the pattern - "rokayla". Rokail looks like a twisted part of a shell.

The pavilions of the park are decorated with details that resemble the elements of nature (seashells, strange plants, stones, rocks). That's why the name “rockel” comes from. Eventually, the term "rocket" began to be used to refer to strange shapes that all twisted and twisted, resembling shells, stones, or pearls. Sometimes the term “rocaille” refers to the Rococo style.

The interior is decorated with exquisite, elegant ornaments, consisting of furniture and decorative items, house and cast-iron royal curls. Unlike the Baroque style, the Rococo style served to make everyday life more comfortable.The ceilings and walls of the buildings are covered with ornaments, reliefs, paintings and mirrors. Decorative and applied arts are distinguished by their elegance.

The masters used all the pictorial possibilities in the decoration of porcelain, jewelry, wood. The Rococo style abandons the straight lines, the order system. It is characterized by bright tones, lightness, asymmetry, beauty and strangeness of the form. By 1760, the Rococo style was replaced by classicism. Classicism is one of the artistic styles of European art of the XVII-XIX centuries, one of the important features of which is its focus on ancient art, which is the basis and example of the traditions of the High Renaissance.

In the style of classicism, everything is calm and glorious. Its representatives, like the creators of the Renaissance, try to adopt and develop the traditions of ancient and high Renaissance. But at the same time, the representatives of classicism tried to enrich the artistic forms and images of the past with the content of the period in which they lived. The contradictions between the state and the individual, the ideal and reality, the emotions and the mind, testify to the complexity of the new style. The artistic forms of classicism are characterized by the clarity and harmony of images, majesty and serenity.

In conclusion, in mastering the techniques of painting and coloring, we must first strive to achieve a level of observability and color perception.

It is well known that color plays an important role in all forms of fine arts. Color gamma refers to the combination of colors used in image processing. It is worthwhile to illustrate this situation with the following live example, for example, the sounds in the art of music are marked and used with known notes. When left unmanaged, they can be left astray and lose the right path. It sounds good when played in harmony with a certain occupation and order.

Meaningful imaginations have the power to delight. Their quality depends on the distance between the voices and the thickness of the voices. As in the case of painting, each color has its own brightness and darkness. The more they fit together and use them in harmony, the more they reflect as images, the more they have the power to convey meaning. If we use paints in contrast to the object of the image, making one very bright and the other unlit, the painting will be meaningless and ineffective. The luminosity and darkness of colors are very difficult to capture and use in nature. For this reason, they are taken in sharper or sharper gammas, in proportion to the image objects. The level of the darkest and lightest parts of the image is determined according to the gamma obtained. Then the images will be integrated, interesting and impressive.

As long as everything and the event are described, it is impossible to reflect it as it really is. This has always been the case with many art theorists, artists and practitioners. After all, the depiction of nature depends on the degree to which the image is derived from it. 'There are many who can express the harmony of the hall. Such masters as M.Nabiev, R.Akhmedov, R.Choriev, B.Burmakin, B.Boboev, J.Umarbekov, A.Mirzaev, A.Ikromjanov, M.Tashmurodov, A.Nuriddinov, A.Kozakov. And we can cite the names of others as examples. Many of their wonderful works confirm our opinion.

We are always working to become educators who will be able to work on ourselves in the future, both in the process of education and in the subsequent period of practical work, to teach students the fine arts, to clearly convey the knowledge in this field. We strive and strive.

## References

1. Islam Karimov HIGH SPIRITUALITY IS AN INVINCIBLE POWER Tashkent "Manaviyat" 2008
2. Law of the Republic of Uzbekistan "On Education". –T., 1997.
3. National Training Program of the Republic of Uzbekistan. T.,1997.
4. State Education Standard of the Republic of Uzbekistan, T.2003.

5. H.Egamov "Working with paints" T-1987.
6. Encyclopedia of the goddess. Vneshsigma Publishing House 2000
7. "School of fine arts" Izd "Fine arts", 1989.
8. Risunok Jivopis. Kompozitsiya. (Chrestomathy) Moscow. "Prosveshchenie" 1989
9. S.ABDIRASILOV, N.TOLIPOV, N.ORIPOV «PAINTER» (Educational-methodical manual) Tashkent -2003
10. Rahmonov I.T. Didactic games on drawing - T-1992.
11. Ishmuhamedov R.J. The effectiveness of education using innovative technologies ways to increase. T.: TDI named after Nizami, 2004.
12. Majidov J. Extracurricular activities in fine arts. T.: 0 ‘Andy. 1983.
13. Mirzaahmedov M.A. Basic pattern making technique. T.: 0 ‘Andy, 1976.
14. Nabiyev M. Coloring. T.: 0 ‘Andy. 1995.
15. Tolipov N. Fine arts circle at school. T.: Fan. 1995.
16. Hasanov R. Methods of teaching fine arts at school. T.: Science. 2004

Göndərilib: 18.12.2021 Qəbul edilib: 07.01.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/74/21-25

**Həqiqət Mahmud qızı Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
müəllim
mammadova.haguigate@mail.ru
**Fəxriyyə İbrahim qızı Cəfərova**
Naxçıvan Müəllimlər İnstitutu
filologiya üzrə fəlsəfə doktoru, dosent
ceferova.fexriyye@ mail.ru

# BƏXTİYAR VAHABZADƏ VƏ DİLİMİZ

**Xülasə**

Bildiyimiz kimi, Azərbaycan dili dünyanın zəngin dillərindən biridir. Bu dili yaşadan xalqdır. Dilimizin saflığı uğrunda mübarizə bunu bir daha təsdiq edir. Qeyd edək ki, hər bir dövrdə dil məsələləri ilə məşğul olanların, mübarizə aparanların demək olar ki, hamısı yazıçılardır.

XX əsrin sonu, XXI əsrin əvvəllərində də dilimizin saflığı uğrunda mübarizə davam etmiş, bir çox yazarlarımız bu mübarizənin önündə getmişlər. Bu ədiblərimizdən biri də xalq şairi Bəxtiyar Vahabzadədir. B.Vahabzadənin dilimizin saflığı ilə bağlı apardığı mübarizə danılmazdır. Şairin bir çox şeirlərində ana dilinin saflığının qorunması kimi məsələlər öz əksini tapır. Bəlkə də buna görədir ki, şairi "ədəbiyyatımızın ana dili şairi" adlandırıblar.

B.Vahabzadə dili məxsus olduğu xalqın tarixini özündə yaşadan bir vasitə kimi qiymətləndirmiş, əsərlərində bunu təbliğ etmişdir. Şairin ədəbi-ictimai fəaliyyətinə nəzər yetirdikdə bir daha əmin olursan ki, bu çoxşaxəli fəaliyyətin arxasında vətən sevgisi, xalqına, onun dilinə böyük məhəbbət dayanır.

Məqalədə B.Vahabzadənin bu sahədəki fəaliyyətindən bəhs edilmişdir.

***Açar sözlər:*** *B.Vahabzadə, Azərbaycan dili, dilimizin saflığı, mübarizə, yaradıcılıq, dil məsələləri*

**Hagigat Mahmud Mammadova**
**Fakhriyya İbrahim Jafarova**

## Bakhtiyar Vahabzadeh and our language

**Abstract**

As we know Azerbaijani language is one of the richest languages in the world. It is the people who keep the language alive. The struggle for the purity of our language confirms this once again. It should be noted that almost all those who deal with language issues and struggle in each period are writers. At the end of the 20th century and the beginning of the 21st century, the struggle for the purity of our languagecontinued, and many of our writers were at the forefront of this struggle.

One of these writers is the national poet Bakhtiyar Vahabzadeh. B.Vahabzadeh's struggle for the purity of our language is undeniable. Many of the poet's poems reflect issues such as the protection of the purity of the mother tongue. Perhaps this is why the poet was called "the poet of the native language of our literature". B.Vahabzadeh valued the language as a means of living the history of the people to whom he belonged, and promoted it in his works. When you look at the poet's literary and social activity you are once again convinced that behind this multifaceted activity is the love of the homeland, great love for the people and their language.

The article discusses the activity of B.Vahabzsdeh in this field.

***Key words:*** *B.Vahabzade, Azerbaijani language, struggle, creativity, language issues*

Azərbaycan xalqının qədimlərdən başlayaraq davam edən mübarizələrindən biri də dil məsələləridir. Hər dövrdə elmi-mədəni problemlər içərisində dil məsələləri öz aktuallığı ilə seçilirmiş. dilimizin saflığı uğrunda mübarizə davam etmişdir.

Görkəmli Azərbaycan maarifçisi Firidun bəy Köçərli deyirdi ki, əgər bir xalqın bütün maddi və mənəvi irsini əlindən alsan, ancaq ana dilinə toxunmasan, həmin millət yox olmaz. O, az müddət sonra

yenidən ayağa qalxar. Ana dili olmayan bir milləti isə heç bir mal-dövlətlə diriltmək olmaz. Doğrudan da, xalq dili ilə tanınir. Dili olmayan xalq isə ölümə məhkumdur.

Mənim dilim-Azərbaycan dili dünyanın zəngin dillərindən biridir. Bu dili yaşadan xalqdır. Dilimizin saflığı uğrunda mübarizə bunu bir daha təsdiq edir. Qeyd edək ki, hər bir dövrdə dil məsələləri ilə məşğul olanların, demək olar ki, hamısı yazıçılardır. Dil tarixinin müxtəlif mərhələləri məhz həmin dövrdə yaşayıb-yaratmış sənətkarlarla bağlıdır. Çünki həmin sənətkarlar həmin dövrdə mövcud olan dilə daha tez müdaxilə edə bilirlər. Onlar öz əsərləi ilə dilə yeni-yeni sözlər gətirə və sözü zaman-zaman dildən uzaqlaşdıra da biliblər.

Qeyd edildiyi kim, hər bir yazıçı və yaxud şairin ədəbi dilə münasibətini, fərdi dil xüsusiyyətlərini müəyyənləşdirmək, onun dilə gətirdiyi yenilikləri aşkar etmək təşəbbüslərini Azərbaycan dilçiliyinin qarşısında duran aktual məsələlərdən biri hesab etmək olar (Azərbaycan dilinin üslubiyyatı, 1990: 61).

Vaxtı ilə doğma dilində bədii əsər yaratmaq istəyən, ancaq bu arzusuna çata bilməyən Nizami Gəncəvinin ürək parçalayan sözləri 800 ildən artıqdır ki, qulaqlarımızda səslənir:

Buyruq halqasına düşdü qulağım,
Qan vurdu beynimə, əsdi dodağım.
Nə ixtiyarım var əmrdən qaçam,
Nə də ki könlüm var, xəzinə açam

Nəsimi, Füzuli, Xətayi kimi sənətkarlar, M.F.Axundzadə, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Qasım bəy Zakir S.Vurğun, Bəxtiyar Vahabzadə bu ənənənin görkəmli nümayəndələrindən olmuş, Ana dilimizin saflığının qorunması problemi əsərlərinin əsas mövzusuna çevrilmişdir. Onlar öz əsərlərində bu problemi əsərlərinin leytmotivinə çevirmiş və bu problemin qarşısını almaq yollarını göstərmişlər.

Ulu öndər Heydər Əliyev deyirdi: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sənəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur"( Hüseynova, 2004: 121).

Bu anda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri də yada düşür: "Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz - Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq".

Xalqın ruhundan doğan və ürəkdən gələn fikirləri ana dilində olduğu qədər aydın və dəqiq şəkildə ifadə etmək qeyri-mümkündür.Ana dili aid olduğu, xidmət etdiyi, xalqın ruhu ilə bağlanmış, minillərlə onun düşüncələrini ifadəçisi olmuşdur. Bir fikri qeyd etmək yerinə düşər: "Xalqın dili onun mənəvi həyatını heçbir vaxt solmayan və daim təzədən çiçəklənən, tarix sərhədlərindən çox uzaqda başlanmış boyasıdır. Dildə bütün xalq və onun bütün vətəni canlanmış olur. İnsanın bəzən sərt vətəninə qarşı məhəbbətini aydın göstərən onun doğma mahnılarında, doğma şərqilərində, xalq şairinin sözlərində öz doğma təbiətinin səsi ana dilində özünü göstərir. Xalq nəsilləri birbirinin ardınca keçib gedirlər,lakin hər nəslin həyat nəticəlıri dil vasitəsilə gələcək nəsilə irs olaraq qalır. Dil xalqın içərisində ölüb keçənlərin, yaşamaqda olanları və gələcək nəsilləri böyük tarixi və canlı bir tam şəklində birləşdirən ən canlı, ən məhsuldar və ən möhkəm əlaqədir" .

XX əsrin sonu, XXI əsrin əvvəllərində də dilimizin saflığı uğrunda mübarizə davam etmiş, bir çox yazarlarımız bu mübarizənin önündə getmişlər. Bu ədiblərimizdən biri də xalq şairi Bəxtiyar Vahabzadədir. B.Vahabzadənin dilimizin saflığı ilə bağlı apardığı mübarizə danılmazdır. Şairin bir çox şeirlərində ana dilinin saflığının qorunması kimi məsələlər öz əksini tapır. Bəlkə də buna görədir ki, şairi "ədəbiyyatımızın ana dili şairi" adlandırıblar.

Xalqın həyatını, onun keçmişini, bugününü dərindən bilən, gələcəyini ürək yanğısı ilə düşünən Bəxtiyar Vahabzadənin poeziyası dilin əsl mahiyyətini, səfərbəredici gücünü, insanın təşəkkül və təkamülündə oynadığı əvəzsiz rolunu araşdırmaqdan ötrü zəngin material verir. Şairin poeziyasına dərindən bələd olduqca ondakı coşqun fikirlərə, yüksək sənətkarlığa, fikir və düşüncənin dərinliyinə heyran qalırsan. Bəxtiyar Vahabzadə poeziyasındakı bütün müsbət keyfiyyətlərin mayası doğma ana dilidir, milli leksikonumuzdur. Şair dilimizin inçəliklərindən, sözdən böyük məharət və incə zövqlə istifadə etmişdir(Alməmmədova, 2010: 10).

Müasir Azərbaycan ədəbiyyatında B.Vahabzadənin dilə, dil tarixinə, onun saflığına, qorunmasına həsr etdiyi şeirlərin sayı çoxdur. Bunun səbəbi isə şairin öz dilini sevməsi, bu dili qoruması idi. O, öz əsərlərində dilin xalq üçün necə dəyərli mənəvi sərvət olması fikrini əsaslandırmış və dilimizin gözəlliklərindən bəhs etmişdir.

Sovetlər quruluşu zamanında sözdə millətlərin mədəniyyəti təriflənsə də, milli respublikaların dillərinin inkişafına mənfi münasibət mövcud idi. Kommunist məfkurəsi sözdə beynəlmiləlçi olsa da, əməldə sovet xalqlarının dillərinə eyni münasibət yox idi, bu sahədə xüsusi məhdudiyyətlər qoyulmuşdu. Dövlət və partiya orqanlarında, orduda bütün sənədləşmə və ünsiyyət ancaq rus dilində aparılırdı. Rəsmi dövlət adamları məclislərdə ancaq rusca danışırdı. Rus dilli orta məktəblərin sayı süni surətdə artırılır və aşkar ruslaşdırma siyasəti aparılırdı.

Ana dilinin sıxışdırılması barədə hər hansı söz danışmaq millətçilik kimi damğalanır və repressiyalara səbəb olurdu. Belə bir ağır şəraitdə B.Vahabzadə bir çox şeir və poemalarında ana dili probleminə qayıdır və onun alovlu təəssübkeşi kimi çıxış edirdi.

B.Vahabzadə dili məxsus olduğu xalqın tarixini özündə yaşadan bir vasitə kimi qiymətləndirmiş, əsərlərində bunu təbliğ etmişdir. Şairin ədəbi-ictimai fəaliyyətinə nəzər yetirdikdə bir daha əmin olursan ki, bu çoxşaxəli fəaliyyətin arxasında vətən sevgisi, xalqına, onun dilinə böyük məhəbbət dayanır.

B.Vahabzadə qəzet və jurnallarda “Ana dilim-ana köküm!”, “Tarix, dil, ənənə”, “Ana dili”, “Dil haqqında sorğu”, “Bir daha ana dili haqqında”, “Dil və əlifba”, “Dilimiz-ədəbiyyatımız”, “Dildə təbiilik və gözəllik”, “Ana dili dövlət dili” kimi məqalələrlə çıxış etmişdir. O, bu kimi məqalələrində Azərbaycan dilini yüksək qiymətləndirmiş, bir şair kimi dilimizi bədii təsvir və ifadə vasitələri ilə zənginləşdirmişdir. O, eyni zamanda, bir sənətkar kimi dil və şeir arasında olan bağları aşkarlamağa çalışmışdır.

B.Vahabzadə şair, ictimai xadim, vətəndaş kimi ana dilimizin həm təbliğatçısı, həm qoruyucusu, həm də yaradıcısı olmuş, müasir Azərbaycan ədəbi dilinin inkişafında xüsusi xidmətləri olmuşdur. Ədəbiyyatşünas R.Xəlilovun sözləri ilə desək: “O, Azərbaycan dilinə məhəbbətlə yanaşmağa öyrədən, Füzulinin, Xətainin, Cəlil Məmmədquluzadənin, Sabirin, Səməd Vurğunun dil mədəniyyətinə varis çıxan, sadiq qalan şairlərimizdən biridir” (Xəlilov, 1996: 188).

Beləcə, hər bir söz sənəti nümayəndəsi kimi, Bəxtiyar Vahabzadə də ədəbi-bədii dilin, ədəbi yaradıcılığın sirlərinə dərindən yiyələnmiş, öz dəsti-xətti ilə seçilmişdir.

Şair bir çox mövzularda-fəlsəfi, sevgi-məhəbbət, təbiət haqqında çoxlu şeirlər yazmışdır. Lakin şairin dil haqqında yazdığı şeirlər çoxluq təşkil edir və nisbətən daha sosial səciyyə daşıyır. O, bu əsərləri ilə oxucunu dil haqqında düşünməyə sövq edir. Onu daha çox vətən şairi kimi tanısaq da, şairin dil haqqındakı şeirləri xüsusi diqqətəlayiqdir. Bu cür şeirləri dilə sevgisi ilə yazılmış, dilimizdə qürurla bəhs etmişdir.

Şair məqalə və şeirlərində dil ilə bağlı olan ən mütərəqqi fikirləri oxucuya aşılayır, onları dilimizi sevməyə çağırırdı. O, milli şüurun inkişafını dildə görür və ona görə də “ana dili”nə “ana köküm” deyirdi. O bu yolda öz sələflərinin işini davam etdirərək, zaman keçdikcə inkişaf nəticəsində dəyişilən dilimizi qorumağa çalışmışdır.

Dilçi alim B.Xəlilov B.Vahabzadənin əsərlərini təhlil etmiş, öz düşüncələrini qələmə almışdır. B. Xəlilov şairin dilə münasibəti barədə yazarkən onun məqalələrinin xüsusi dəyərə malik olduğunu qeyd etmişdir. Müəllif şairin bir neçə məqaləsini misal gətirərək, şairin xalq folklorundan da yararlandığını, ona necə dəyər verdiyini söyləmişdir. Bayatıları təhlil etməkdə xalqın dilinin dürüstlüyünü bilməyin mümkünlüyünü sübut etmişdir. “Bəxtiyar Vahabzadə 1973-cü ildə “Bayatılar”, “Ana laylası,uşaq dünyası” məqalələrini yazır. Bu məqalələrdə o, xalq yaradıcılığından – bayatılardan, laylalardan,yəni xalqın ruhundan süzülüb gələnləri yaşatmağımızı vacib sayır. Bununla belə,məqalələrdə qeyd edilir ki, doğma dilimizin, doğma dilimizim sözlərimizin sehrində xalqın düşüncəsini,mənəviyyatını əxz edə bilirik. Deməli,yenə də dil aparıcı mövqedə olur” (Xəlilov, 2014: 64).

B.Vahabzadə yaradıcılığının şah əsərlərindən biri “Ana dili” şeiridir. Bu şeir onun yaradıcılığının əsasını təşkil edir. Bu şeirdə şair dil üçün deyiləcək ən mütərəqqi fikir və ideyalarını əks etdirmişdir. Dilin xalqın həyatında nə qədər vacib bir vasitə olması fikri diqqətə çatdırılmışdır. Şeirdə ana-vətən vəhdəti, sevgisi hiss olunur. Şeirin birinci misralarına diqqət etsək bunun şahidi ola bilərik.

Dil açanda ilk dəfə,ana söyləyirik biz,
Ana dili adlanır bizim ilk dərsliyimiz(Vahabzadə, 2004: 8).

Şair, eyni zamanda, Üdili insanın anasından öyrəndiyi ən qiymətli sərvət, vətənə və millətə məhəbbətinin başlanğıcı kimi səciyyələndirir" (Vahabzadə, 1991: 65).

Şair öz fərqli baxışları ilə diqqət çəkir. Dilimizi o qədər gözəl tərənnüm edir ki, bu dildə danımağı ar bilənlərə sanki dərs vermiş olur. Öz sözləri ilə bəlkə də onları utandırmaq istəyir .

Ey öz doğma dilində danışmağı ar bilən,
Bunu iftixar bilən , modalı ədəbazlar
Qəlbinizi oxşamır qoşmalar telli sazlar.
Qoy bunlar mənim olsun.
Ancaq vətən çörəyi, bir də ana ürəyi
Sizlərə qənim olsun(Vahabzadə, 2004: 9).

Tanınmış alim Cavad Heyətin dediyi kimi — Dil kulturun aynası və onun təməl rüknüdür, insanın düşüncə və duyğularını, xəyal və istəklərini bütün incəlikləri ilə açıqlayan və yaşamasına imkan hazırlayan dildir. Cəmiyyəti millət halına gətirən bağların ən güclüsü dildir (Heyət Cavad, 2009: 34).

Şair dilimizin gözlliklərindən ağızdolusu bəhs edir. Dil, ana dili məsələləri Bəxtiyar Vahabzadənin bədii və publisistik yazılarının daimi, sabit mövzularından olmuş, dilin mənasını və əhəmiyyətini həm özünə, həm də başqalarına açmağa çalışmışdır:

Bu dil - bizim ruhumuz, eşqimiz. canımızdır,
Bu dil - bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil-tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil -əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoryub nəsillərə biz də hədiyyə verək (Vahabzadə, 2004: 8).

Şairə görə, dil təkcə ünsiyyət vasitəsi deyil, dil insanların özlərini ifadə etmələrində, duyğu və hisslərini bölüşə bilməklərində də əsas vasitədir:

Mən bu dildə hiss eşitmişəm
Həm sevinci, həm də qəmi,
Bu dil ilə yaratmışam
Hər şeirimi, hər nəğməmi (Vahabzadə, 1977: 72).

Şair göstərir ki, tariximiz də, mədəniyyətimizdə dilimizdə yaşayır. Bu dil yaşadıqca biz də var olacayıq:

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır.
Səndə neçə min illik mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır.
Mənim adım-sanımsan,
Namusum, vicdanımsan! (Vahabzadə, 1982: 162).

Şair bu sahədə apardığı mübarizəni belə dəyərləndirirdi: "Sovet dövründə mənim əsas mübarizəm ana dilimizin rəsmi dövlət idarələrindən uzaqlaşdırılmasına görə idi. Bu dövrdə milli dillər sıxışdırılır, assimilyasiyaya uğramaq vəziyyətinə salınırdı. Xalqın milli varlığı ilk növbədə onun dili ilə bağlıdır. Dili olmayan xalqın özü də yoxdur. Gündəlik ünsiyyətdə Azərbaycan dilinin rus dili ilə əvəz edilməsi ömrüm boyu məni ağrıtmış və mən həm məqalələrimdə, həm də şeirlərimdə bu dilin müdafiəsinə qalxmışam" (Vahabzadə, 1985: 158).

Bəxtiyar Vahabzadə öz dilini sevən vətəndaş kimi dilinin müstəqil bir respublikanın dövlət dili kimi işlənməsindən qürur hissi keçirdiyini belə qeyd edirdi:

*Dilim ayaqlarda toz olan zaman*
*Ali məclislərdən qovulan zaman*
*Rahatsız deyildim ana dilimdən*
*Sənə güvənirdim,*
*bilirdim ki, mən*
*Dilimdə danışan bir türk yurdu var,*
*Öz dilim yaşarsa, millətim yaşar!* (Vahabzadə, 1998: 38)

Göründüyü kimi, dil, dilin saflığı, qorunması məsələləri Bəxtiyar Vahabzadə yaradıcılığının ana xəttini təşkil etmiş, şair bütün omrü boyu bu ənənəyə sadiq qalmışdır.

Bəxtiyar Vahabzadə yaradıcılığına münasibət bildirən Ramazan Qafarlı yazır: "Dil məsələsində heç kəsə güzəştə getmir. Çünki dil ürəyinin açarıdır". O açarı başqasına verəndən ne gözləmək olar? Dilinə xor baxan torpağına kor baxar. Ana südünü əmənde eşitdiyi laylanı qulaqlarında sırğa etməyənlər üçün müqəddəs şey yoxdur. Şair yeri gələndə heç ustad Şəhriyarı da bağışlamır, acısa da günahını üzünə deyir:

Məni bağışlasın
Şəhriyarım da,
Otuz il özgəyə "berader" dedi.
Öz doğma yurdunda, öz Diyarında
Doğma anasına o "mader" dedi.
Ele ki, yumruğu yere dirəndi,
Dərhal yada düşdü doğmaca kendi (Qafarlı, 2014: 507-531).

B.Vahabzadə yaradıcılığı bir daha sübut etdi ki, ana dili məsələsi onu daima düşündürmüş, bu sahədə böyük işlər görmüşdür. Şair çox gözəl bilirdi ki, millətin bir millət kimi məhvinə yalnız bir yolla nail olmaq mümkündür – onun dilini əlindən almaqla. Ona görə də həmişə doğma ana dilinə hörmətlə yanaşmış bu dildə yazib-yaratmaqdan qürur duyduğunu dilə gətirmiş, dilini sevməyənlərə, bu dildə danışmaq istəməyənlərə öz əsərləri ilə tutarlı cavablar vermişdir.

## References

1. Azərbaycan dilinin üslubiyyatı. Elmi, rəsmi və eristolyar üslublar. Bakı, Elm, 1990.
2. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, "Təhsil", 2004, 472 s, s 121
3. Alməmmədova Səbinə Məmməd qızı. Bəxtiyar Vahabzadə poeziyasının dili. Bakı, "Elm", 2010
4. Xəlilov R. Azərbaycan sovet ədəbiyyatı. Bakı, Yazıçı, 1966.
5. Xəlilov B.Bəxtiyar Vahabzadənin dilçilik görüşləri. "Bakı çap evi"nəşriyyatı. Bakı-2014
6. B.Vahabzadə Seçilmiş əsərləri. Öndər nəşriyyat.İki cilddə.Birinci cild. Bakı-2004
7. Vahabzadə B. Şənbə gecəsinə gedən yol. B., Azərnəşr, 1991
8. Heyət Cavad. Kamillik zirvəsi. Bakı, AzərnəÇr, 2009, 376 s.
9. Vahabzadə B..Açıq söhbət. B., Gənclik, 1977, 172 s.
10. Vahabzadə B..Vətən ocağının istisi. B., Gənclik. 1982
11. Vahabzadə B. Özümlə söhbət. B., Azərnəşr, 1985
12. Vahabzadə B. Bir ömür yuxu. B., Azərnəşr, 1998
13. Qafarlı Ramazann "Bextiyar Vahabzade Türk Dünyasının İstiqlal Şairidir". Türk Dünyası Bilgeler Zirvesi: Gönül Sultanları Buluşması. 26-28 Mayıs 2014. Eskişehir 2013 Türk Dünyası Kültür Başkenti Ajansı (TDKB). Eskişehir, ss. 507-531

Göndərilib: 23.12.2021 Qəbul edilib: 11.01.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/74/26-30

**Səbinə Namiq qızı Cəfərova**
Bakı Slavyan Universiteti
doktorant
sabina_16_86@mail.ru

# "ƏKİNÇİ" QƏZETİNDƏ DƏRC OLUNAN MƏQALƏLƏRİN AZƏRBAYCANDA AİLƏ TƏRBİYƏSİNİN İNKİŞAFINA TƏSİRİ

**Xülasə**

Milliətin tərəqqisi və milli şüurunun oyanması, özünüdərk prosesi və dünya sivilizasiyasının yeni tövhələrindən yaranmasında mətbuatın özünəməxsus yeri vardır. Azərbaycanın demokratik ruhlu pedaqoji ideyalarının inkişafın ilk mətbu orqan təməli 1875-ci ildə qoyulan "Əkinçi" qəzetinin yaranması ilə bağlı olmuşdur. "Əkinçi"nin meydana gəlməsi Azərbaycanın istər ictimai-siyasi, istər mədəni-maarif sahəsində vacib hadisələrdən biri hesab edilirdi. Azərbaycanda qəzet və jurnallarda da əsas aparıcı mövzu xalqın maarifləndirilməsi, mədəniyyət, təhsil, ailələrin müasir dövrün tələblərinə uyğun olaraq övladlarını tərbiyəsi, bu problemlərin mətbuatda işiqlandırılması məsələləri idi.

Məqalədə "Əkinçi" qəzetində dərc olunan nəşrlərdə sosial quruluş, ailə münaqişələri, uşaqların təhsil səviyyəsinin aşağı olması məsələləri araşdırılır. Qəzetdə dərc olunan məqalələr uşaqları elmə səsləyir, valideynlərə övladlarını millətin, Vətənin gələcəyi naminə böyütmələri tövsiyə olunurdu.

***Açar sözlər:*** *ailə, tərbiyə, cəmiyyət, elm, xalq, maarif*

**Sabina Namig Jafarova**

## Influence of articles published in the "Akinchi" newspaper on the development of family upbringing in Azerbaijan

**Abstract**

Media kanalları daha çox istifadəçi tərəfindən yaradılan brend məzmunun üstünlüklərini ön plana çıxarırdı. Forbes sənayelərə UGC-ni motivasiya etmək üçün qərar vermə addımını başlatmağı təklif etdi (Olenski, 2017). Bundan əlavə, onlayn reklam jurnalının məqaləsində Adweek, istifadəçi tərəfindən yaradılan məzmunun (UGC) birləşdirilməsinin daha ucuz olduğunu və davamlılıq üçün markalara daha təsirli bir alət kimi tövsiyə etdi (Mayrhofer et al., 2020). Hashtagların istifadəsi və Adweek-in sonrakı nəşrlərinin retvitləri kimi ölçülərə istinad edərək, istifadəçi tərəfindən yaradılan brend şəkillərinin əhəmiyyətinin danılmaz olduğu görünmüşdü (Mayrhofer et al., 2020). MIT Sloan Management Review-ə görə, ticarət və kommersiya brendləri sosial internet şəbəkəsi biznes strategiyalarını yenilədilər, bu da müştərilərin öz brendinq hashtaglarını yerləşdirməsinə imkan yaradaraq, şirkətin investisiya gəlirinin artmasına kömək edir. Tədqiqatçılar istifadəçi və ya müştərinin şəxsiyyətini müəyyən etmək üçün istifadəçilərin sosial media platformalarında brendə uyğun məzmun yazılarını təşviq etmələrinin və çərçivələmələrinin məqsədlərini araşdırdılar. (Mayrhofer et al., 2020). Bir çox istifadəçi sosial mediada öz brend imicini və şöhrətini nümayiş etdirmək üçün markalar ilə şəkillər yükləyir. Bu cür tez-tez edilən paylaşımlar brend selfilər kimi qəbul edilir və sosial mediada istifadəçi yazılarının görünməsini artırır. Bundan əlavə, məzmun təhlili sosial medianı markanın davamlılığına kömək etmək üçün müştərilərin və ya istifadəçilərin şəxsi inteqrasiyasını və sosial əməkdaşlığını təmin edərək motivasiya edir.

Davamlılıq son beş onillikdə ortaya çıxan və inkişaf edən bir mövzudur. Bir brendin davamlılığı onun rəqib brendləri ilə müqayisədə bazarda reytinqlərini saxlamaq və ya artırmaq qabiliyyəti ilə ölçülür. Əlavə olaraq, orta artım tempi də brendin davamlılığının mühüm ölçüsü kimi qəbul edilir.

**Marka İntellekti Analitikası**

Müasir süni intellektlə idarə olunan dünyada bir neçə veb tətbiqi mətn məlumatlarının təhlili vasitəsilə marka imicini, yerləşdirməni və əhəmiyyətini qiymətləndirmək üçün hazırlanmışdır (Colladon, 2020). Bunun üçün markanın bilinirliliyini ölçmək üçün Semantik Brend Dərəcəsini (SBS) hesablayan bir proqram var. Big Data - dan istifadə etmək qabiliyyəti o deməkdir ki, menecerlər brendlərin müsbət və ya mənfi hallarını izləmək üçün müştəri nümunələrində və yanaşmalarında tendensiyaları yenidən nəzərdən keçirməlidirlər (Colladon, 2020). SBS unikal konsepsiyadır və müştəri məlumatlarının analitikasından istifadə edən brend əhəmiyyətinə malikdir. (Colladon, 2020). Müxtəlif perspektivlərdən çoxsaylı onlayn mənbələrdən alınan məlumatların köməyi ilə dinamik tendensiyaları nəzərdən keçirmək və birdən çox markanın əhəmiyyətini hesablamaq üçün hazırlanmışdır. Bu ölçü müxtəlif mədəniyyət və dillər üzrə məlumatların təhlili üçün uyğundur. SBS konsepsiyaları daha çox bilinən brendlərə brendin tanınması və onun məlumatlılığı vasitəsilə marka bərabərliyinə nail olmağa kömək edirdi (Keller, 2016). Brend bir şəxs və ya siyasətçi və ya brend dəyəri yaratmaq üçün konsepsiyada istifadə olunan bir neçə açar söz ola bilər. SBS, yeni brend köhnə brendi əvəz etdikdə onları qiymətləndirməkdə və səhm bazarlarının tendensiyalarını proqnozlaşdırdıqda keçid dinamikasına çatmaq üçün istifadə olunur. Bundan əlavə, SBS üç ölçüdən ibarətdir və bunlar ümumilik, müxtəliflik və əlaqədir. Ümumilik bir marka adının istifadə tezliyini ölçür, marka məlumatlılığına və markanın xatırlanmasına səbəb olur. Müxtəliflik leksik yerləşdirmə kimi bir marka ilə əlaqəli mətnlərin qarışığını dəyərləndirir. Əlaqədarlıq brendin digər mətnlər arasında körpü əlaqələri təmin etmək qabiliyyətinə kömək edir (Colladon et al., 2020). Nəhayət, gələcək tədqiqatlar brendlərin zənginləşdirilməsi və brendlərin yeni ölçülərini təsvir edə biləcək yayılma, müxtəliflik və əlaqədə düzəlişlərin diversifikasiyası üçün SBS-də daha çox funksionallığı nəzərdən keçirə bilər.

**Rəqəmsal İnnovasiyalar və Brend Mükəmməlliyi**

Rəqəmsal innovasiyalar texnologiyanın köməyi ilə davamlı inkişaf üçün dəyər zənciri yaratmışdır. Rəqəmsal alətlərin hətta istehsal sektorunda geniş istifadəsi davamlı inkişaf məqsədlərindən birinə nail olmaq üçün tullantıları azalda bilər. Rəqəmsal yeniliklərə böyük məlumatlar, onlayn və mobil reklamlar, onlayn məxfilik, onlayn rəylər, rəqəmsal əməliyyatlar üçün platformalar və pərakəndə analitikası daxildir. Daha çox rəqəmsal yeniliklər onlayn reklam vasitəsilə brendlərin marketinq strategiyasına kömək edir və Amazon, Spotify, Google və digər platformalar vasitəsilə istehlakçılara alqoritmik tövsiyələr çatdırılır.

## Nəticə

Bibliometrik təhlil süni intellekt anlayışlarını və onun brendinqdə tətbiqlərini başa düşmək üçün yeni və maraqlı mövzu gətirir. Bibliometrik analiz tətbiq edilərək, texnologiyanın interfeysi ilə marketinq sahəsində yeni tapıntılar müşahidə edilmişdir, bu cür təhlillərin böyük verilənlərin analitikası və istehsal edən müəssisələrin dayanıqlılığın maliyyələşdirilməsi, inkişaf etməkdə olan texnologiyalar, innovasiya sahibkarlığı, müştəri markası əlaqələri kimi digər sahələrə tətbiqi təmin edilmişdir. Bu tədqiqat brendin tanınmasında, satışların artmasında, sosial media marketinqi vasitəsilə tanıtımda və fərdiləşdirilmiş qiymətlərdə süni intellektə dair unikal anlayışı təmin edir.

## References

1. Akter S., Michael K., Uddin M.R., McCarthy G., & Rahman M. (2020). Transforming business using digital innovations: The application of AI, blockchain, cloud and data analytics. Annals of Operations Research, 1–33. DOI:10.1007/s10479-020-03620-w
2. Brodie R.J., Ilic A., Juric B., & Hollebeek L. (2013). Consumer engagement in a virtual brand community: An exploratory analysis. Journal of Business Research, 66(1), 105-114. DOI:10.1016/ j.jbusres.2011.07.029

3. Campbell C., Sands S., Ferraro C., Tsao H.Y.J., & Mavrommatis A. (2020). From data to action: How marketers can leverage AI. Business Horizons, 63(2), 227-243.DOI:10.1016/j.bushor.2019.12.002
4. Colladon A.F. (2020). Forecasting election results by studying brand importance in online news. International Journal of Forecasting, 36(2), 414–427. DOI:10.1016/j.ijforecast.2019.05.013
5. Colicev A., Malshe A., Pauwels K., & O'Connor, P. (2018). Improving consumer mindset metrics and shareholder value through social media: The different roles of owned and earned media. Journal of Marketing, 82 (1), 37–56.DOI:10.1509/jm.16.0055
6. Goh K.Y., Heng C.S., & Lin Z. (2013). Social media brand community and consumer behavior: Quantifying the relative impact of user-and marketer-generated content. Information Systems Research, 24(1), 88–107.
7. Kar R., & Haldar R. (2016). Applying chatbots to the internet of things:Opportunities and architectural elements. Arxiv preprint Arxiv: 1611.03799.
8. Keller K.L. (2016). Reflections on customer-based brand equity: Perspectives, progress, and priorities. AMS Review, 6(1-2), 1–16.
9. Keller K.L. (2020). Leveraging secondary associations to build brand equity: Theoretical perspectives and practical applications. International Journal of Advertising, 39(4), 448–465.
10. Kim J. (2020). The influence of perceived costs and perceived benefits on AI-driven interactive recommendation agent value. Journal of Global Scholars of Marketing Science, 30(3), 319–333.
11. Liang T.P., & Turban, E. (2011). Introduction to the special issue social commerce: A research framework for social commerce. International Journal of Electronic Commerce, 16(2), 5–14.
12. Mayrhofer M., Matthes J., Einwiller S., & Naderer B. (2020). User generated content presenting brands on social media increases young adults' purchase intention. International Journal of Advertising, 39 (1), 166–186.
13. Olenski S. (2019, February). Ways brands should use native advertising in 2017. https://www.forbes.com/sites/steveolenski/2017/02/16/4-ways-brands-should-use-native-advertising-in-2017/?sh=23e553fa1c4c
14. Sarkar A., Sarkar J.G., & Phau I. (2016). Devoted to you my love: Brand devotion amongst young consumers in emerging Indian market. Asia Pacific Journal of Marketing and Logistics, 28 (2), 1–22.
15. Swaminathan V., Sorescu A., Steenkamp J.B.E., O'Guinn T.C.G., & Schmitt, B. (2020). Branding in a Hyperconnected World: Refocusing Theories and Rethinking Boundaries. Journal of Marketing, 84(2), 24–46.

**Rəyçi: dos. A.Hüseynli**

Göndərilib: 21.12.2021 Qəbul edilib: 09.01.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/74/39-44

**Kifayət Qurban qızı Mənsimova**
ADPU nəzdində Pedaqoji kollec
müəllim
kifayetmnv@gmail.com

# İNKLUZİV TƏHSİLİN NƏZƏRİ ƏSASLARINA DAİR

**Xülasə**

İnklüziv təhsil modeli təhsildə yeni islahatların həyata keçirilməsini, təhsilə dair qanunlarda əlavə və düzəlişlərin edilməsini, kadr hazırlığında yeni bilik və bacarıqların aşılanmasını, bütün təhsil müəssisələrinin maddi-texniki bazasının zənginləşdirilməsini və s. tədbirləri kompleks şəkildə həyata keçirməyi sinif, məktəb və hətta dövlət səviyyəsində bir məqsəd kimi qarşıya qoydu. İnklüziv təhsil özündə həm də humanist dəyərləri ehtiva etdiyindən daha geniş vüsət almağa başladı. Mahiyyəti etibarilə humanizmi təlqin edən və demokratik prinsiplərə söykənən inklüziv təhsil yalnız mətktəb çərçivəsində və təhsil sistemi səviyyəsində deyil, eyni zamanda bütün cəmiyyət miqyasında hər kəsə bərabər imkanlar və irqindən, dinindən, maddi-sosial vəziyyətindən, əqli və fiziki imkanlarından asılı olmayaraq cəmiyyətin hər bir fərdinə ədalətli yanaşma tələb edir.
***Açar sözlər:*** *inklüziv təhsil, təhsildə humanizm, təhsildə islahat, əqli və fiziki qüsur*

**Kifayat Gurban Mansimova**

## On the theoretical fundamentals of inclusive education

**Abstract**

The model of inclusive education sets aims the implementation of new reforms in education, additions and amendments to the laws on education, inculcation of new knowledge and skills in staff training, enrichment of the material and technical base of all educational institutions, etc.  the implementation of comprehensive manner at the classroom, school and even the state level.As inclusive education contains humanistic values it becomes more widespread. Inclusive education, which is essentially humanistic and based on democratic principles, requires equal opportunities for all and a fair approach to every member of society, regardless of race, religion, financial status, mental or physical capacity, not only within the school and at the level of the education system, but also throughout society.
***Key words***: *inclusive education, humanism in education, reform in education, mental and physical disability*

## Giriş

XX əsin sonu XXI əsrin əvvələrində təhsildə bir sıra dəyişikliklər müşahidə olunmağa başladı. Bunlar təhsilin fəlsəfi mahiyyətinə, məzmununa, biliklərin qiymətləndirilməsinə, müəllim-şagird münasibətlərinə, təlim-tərbiyə metodlarına və təhsilin digər bütün elementlərinə yanaşmada müşahidə olundu. Bu yeniliklər  təbii ki, elm və texnologiyanın sürətli inkişafının nəticəsi idi. Mürəkkəb insan-cəmiyyət münasibətlərinin ən vacib komponentlərindən olan təhsil və təlimdə də paradiqmalann dəyişməsi labüd idi və bu baş verdi.

Təhsil sferasında ən inqilabi və nəzərəçarpan paradiqma dəyişikliklərindən biri də xüsusi təhsildə ortaya çıxdı. II Dünya Müharibəsindən sonra BMT-nin təsis edilməsi və bu təşkilat vasitəsilə irqindən, dinindən, milliyətindən, fiziki və əqli qüsurlarından və s. amillərdən  asılı olmayaraq bütün insanların bərabər haqq və hüquqlara sahib olması faktının dünyaya bəyan edilməsi vacib amil oldu.  Dünyada  demokratik dəyərlərin əhəmiyyətinin vurğulanması ilə bütün xidmət və fəaliyyət sahələri insana yönəldi. Bununla inklüziv təhsilə maraq artdı. Digər əsas amil isə fiziki və əqli qüsur anlayışına baxış bucağının  dəyişməsidir. Belə ki, əvvəllər xüsusi təhsildə ənənəvi olaraq psixi-tibbi yanaşma üstünlük təşkil etmişdir. “Bu yanaşma fərdin  qüsurlarından törəyən maneələrin

yalnız fərdin özündən qaynaqlandığını əsas tutur və fərdin ərtaf mühitlə münasibətində mühitin yaratdığı imkan yaxud məhdudiyyətləri qətiyyən nəzərə almırdı. Lakin bubu əksinə olaraq xüsusi təhsildə yeni təmayül kimi peyda olan "təşkilati yanaşma" diqqəti insanın qüsurlarına deyil, mühitin imkanlarına yönəltdi" (Xüsusi psixofiziki..., 101).

Yeni pedaqoji fəlsəfədə "qüsurlu insan yox, qüsurlu mühit vardır" prinsipi üstünlük təşkil edir. Bu səbəbdən də inklüziv təhsildə pedaqoqlar əsas diqqəti qüsurlara deyil bu qüsurların tələblərinə cavab verə bilən təlim materiallarının, əyani vasitələrin, maddi-texniki vasitələrin maksimum səmərəli istifadəsinə yönəltməyi tövsiyə edir. Bu prinsipdən doğan inklüziv təhsil modeli təhsildə yeni islahatların həyata keçirilməsini, təhsilə dair qanunlarda əlavə və düzəlişlərin edilməsini, kadr hazırlığında yeni bilik və bacarıqların aşılanmasını, bütün təhsil müəssisələrinin maddi-texniki bazasının zənginləşdirilməsini və s. tədbirləri kompleks şəkildə həyata keçirməyi sinif, məktəb və hətta dövlət səviyyəsində bir məqsəd kimi qarşıya qoydu. İnklüziv təhsil özündə həm də humanist dəyərləri ehtiva etdiyindən daha geniş vüsət almağa başladı.

Təbii ki, inklüziv təhsil ideyasına qədər də fiziki və əqli qüsurlu insanların təhsilə olan tələbatı təmin edilirdi. Bunun üçün müvafiq diaqnoz qoyulmuş uşaqlar aidiyyəti üzrə xüsusi təyinatlı məktəblərə cəlb olunurlar. Bu tipli məktəblər insanın ən vacib ehtiyaclarından birini - insanlarla sosiallaşmaq ehtiyacını, cəmiyyətə inteqrasiya və adaptasiyasını təmin edə bilmirlər. Nəticədə isə cəmiyyətin bütövlüyü pozulur. Buna görə bütün uşaqların eyni məkanda birgə təhsil almasını nəzərdə tutan inklüziv təhsil modeli uşaqları ayrı seçkiliyə məruz qoyna institutlaşmış təhsil modelindən bir addım öndədir.

Nəzərə almaq lazımdır ki, təhsildən məhrum olan yalnız fiziki/əqli qüsurlu uşaqlar deyil. Bu risk qrupuna bir çox hallarda həm də kasib və aztəminatlı ailələrin uşaqları, müəyyən radikal dini görüşləri yaxud ciddi mühafizəkar adət və ənənələri olan və s. tipli ailələrin uşaqları daxildir. Təsadüfi deyil ki, nklüviz təhsil özünün inkişaf mərhələsində sərhədlərini genişləndirərək təhsildən məhrum olan hər kəsin təhsilə cəlb olunması fikrini ifadə etməyə başladı. Bu proses UNESCO-nun 1994-cü ildə qəbul etdiyi Salamanka bəyannaməsindən sonra xüsusilə geniş vüsət aldı.

BMT Baş Assambleyasının (1993) "Əlilliyi olan insanlara bərabər imkanların yaradılması üzrə" Beynəlxalq Standart Qaydalarında və eləcə də Salamanka bəyannaməsində ibtidai, orta və ali təhsil pillələrində əlilliyi olan insanların inteqrativ və inklüziv təhsilə cəlb olunması və onlar üçün bərabər imkanların təmin olunması prinsipini xüsusi olaraq qeyd edilir. 1970-ci illərdən etibarən Avropa və Şimali Amerikada tətbiq olunmağa başlayan inklüziv təhsil sahəsində bir neçə onillik zaman müddətində beynəlxalq təcrübə zənginləşmiş və yeni tendensiyalar yaranmışdır.

"İnsan hüquqları sahəsində beynəlxalq standartlar cəmiyyətin həyatında bütün insanların tamamilə bərabərlik əsasında və ayrı-seçkilik olmadan iştirakı ideyasına əsaslanır (BMT, 1993). Son iki onillikdə bütün dünyada, xüsusən də qərb ölkələrində hüquq bərabərliyi haqqında qanunvericilik məktəblərin bütün şagirdlər üçün təhsili təmin etməsinə böyük təsir göstərmişdir. Bu qanunlar öz mahiyyətinə görə diskriminasiya əleyhinə olmuş və əlillik səbəbindən dikriminasiyanı qanundankənar bəyan etmişdir. Təhsil sahəsində bu qanunvericilik belə bir norma müəyyən etmişdir ki, əlilliyi olan şagirdlər də sağlam şagirdlərlə eyni təhsil imkanlarına malik olmalıdırlar" (Tim Loreman, 2020).

Bəs əlillik nədir? Bu suala bir sıra pedaqoq-alimlərin tədqiqatlarında cavab tapa bilərik. Onlardan bəzilərini diqqətinizə çatdırırq.

Əlillik anlayışı sahəsində tarixi, siyasi və qanunvericilik baxımdan dəyişikliklər iyirminci yüzilliyin 1970-80-ci illərindən başlamışdır. Təhsildə əlilliyin müəyyən edilməsinin üç kateqoriyasından istifadə olunur: funksional tibbi və social-siyasi məhdudiyyətlər (Bernell, 2003; Hahn, 1985; Jeon və Haider-Markel, 2001) . bu təyinlərin hər biri social siyasətin müəyyən tipinə uyğundur və müvafiq surətdə onların hər birinin əlilliyi olan şəxslər üçün öz xüsusi maliyyə "nəticələri" vardır.

Adətən əlilliyin olmasını təsdiqləmək üçün tibb sahəsində, psixoloji qiymətləndirmə və "tədrisin mühüm qiymətləndirmə faktoru olduğu kontekstdənkənar aparılan digər ümumi qiymətləndirmə" sahəsində çalışan mütəxəssislər cəlb olunurlar (Deppeler, 2003, səh.17).

Əlilliyin İnsan Hüquqları və Bərabər İmkanlar Komitəsi tərəfindən verilmiş tərifin (1994) bir çox ölkələrin qanunvericiliyində mövcud olan təriflərlə oxşar cəhətləri çoxdur; əlilliyin nəticələri ayrı-semkilik və xüsusi maliyyələşdirmə zərurətidir. Aşağıdakı halları əlillik hesab etmək olar:

- insanda fiziki və müntal funksiyaların çatışmazlığı, yəni insanda tetraplegiya, beyin fəaliyyəti pozulması, yaxud epilepsiya və s. müşahidə edilir
- insanın hər hansı bir bədən əzasını itirməsi, məsələn amputasiya nəticəsində, yaxud qadında aşaqlığın xaric edilməsi əməliyyatının qaparılması
- yoluxucu və qeyri-yoluxucu xəstəliklər, məsələn QİÇS, hepatit, vərəm, allergiya yaxud tifoid basillodaşıyıcılıq
- daxili orqanların fəaliyyətinin pozulmasıilə baölı semantik xəstəlikkər, məsələn astma və ya diabet, yaxud anadangəlmə ləkələr, çapıqlar və s. kimi fiziki qüsurlar
- tədrisin normativ üsullardan xeyli dərəcədə fərqləndiyi hallar, məsələn autizm, desleksiya, diqqət çatışmamazlığı, yaxud intellektual çatızmazlıq zamanı
- insanda təfəkkür proseslərinin, mühakimə yürütmək, reallığı, başqa adamların emosiyalarını başa düşmək qabiliyyətinin pozulması və ya davranış pozuntusu nəticəsində yaranan hallar, məsələn, əqli xəstəlikləri olan adamlarda nevrozlar, yaxud şəxsiyyət pozuntuları zamanı

Əlilliyin müxtəlif təyini əlillik meyarlarının necə təyin edilib müəyyənləşdirilməsinə, sonradan hansı qərarların qəbul edilməsinə və qərarların qəbul olunmasında, kimlərin iştirak etməsinə mühüm təsir göstərir. Inklüziv təhsil siyasəti əlilliyin sosial-siyasi təyinatı ilə bilavasitə bağlıdır - əlilliyi olan şagirdləri xüsusi fərqlilikləri olan insanlar kimi deyil, irq, cins, boy və s. kimi öz fərdi fiziki atributları olan insanlar kimi nəzərdən keçirmək lazımdır. “Mahiyyəti etibarilə humanizmi təlqin edən və demokratik prinsiplərə söykənən inklüziv təhsil yalnız mətktəb çərçivəsində və təhsil sistemi səviyyəsində deyil, eyni zamanda bütün cəmiyyət miqyasında hər kəsə bərabər imkanlar və irqindən, dinindən, maddi-sosial vəziyyətindən, əqli və fiziki imkanlarından asılı olmayaraq cəmiyyətin hər bir fərdinə ədalətli yanaşma tələb edir” (Xüsusi psixofiziki..., 103).

İnklüziya təhsilin təşkili sosial-pedaqoji xarakterli bir fenomendir. Öz növbəsində, məktəb və sosial mühitin hər uşağın imkanlarına adaptasiya olunmasına istiqamətlənməlidir. Inklüziv təhsil ümumi təhsilin bir hissəsi olmalıdır. Birlikdə isə onlar vahid təhsil sistemi kimi fəaliyyət göstərməlidirlər. Beynəlxalq sənədlər inklüziyanı “bütün uşaqların, psixofiziki imkanlarından asılı olmayaraq, mövcud şəraitdə cəmiyyətin həyatında iştirak etməsini təmin edən bir dəyər” kimi qiymətləndirirlər. “Mükəmməl qanunlara görə, inklüziv təhsil təhsilin bir forması deyil, o, öz fəlsəfəsi olan yeni təhsildir, sərbəst seçim və imkanlar təhsilidir. İnklüziv təhsil ətrafında gedən pozitiv və neqativ mübahisələr bəzən anlaşılmazlıqlara gətirsədə, ümumilikdə bu prosesin inkişafına və inklüziv təhsil anlayışının məzmunca və mənaca doldurulmasına, bu sahədə olan yeniliklərin öyrənilməsinə kömək edir”.

İnklüziv təhsilin inkişafındakı müasir mərhələnin problem və ziddiyətlərlə zəngin olması açıq və peşəkar dialoq, konstruktiv mübahisələr, yerli təcrübənin nəzərə alınmasını və əməkdaşlığı tələb edir. Bundan başqa digər amillər dənəzərdə tutulmalıdır. Məsələ, geniş yayılmış streotiplər və xurafatlar; müəllimlərin, uşaqların və onların valideynlərinin yeni təhsil prinsiplərini qəbul etməməsi; yerli inklüziyaya aid sistemli psixoloji-pedaqoji bilik və texnologiyalar, monitorinq tədqiqatlarının olmaması və s. Buna görə inklüziyanın müsbət tərəflərini insanlara başa salan ciddi elmi tədqiqatlar aparılmalıdır. Bu sahədə başqa ölkələrin təcrübəsinin öyrənilməsi də əhəmiyyət kəsb edir.

İnklüziv təhsilin inkişafı üçün vacib məqam inklüziv təhsili tətbiq etmək üçün ümumtəhsil məktəbinin müəllimlərinin və müşayiətçi (köməkçi) müəllimlərin peşəkar hazırlığıdır. Onlar özləri də xüsusi təhsil ehtiyacları olan uşaqlarla işləmək üçün korreksion pedaqogika, xüsusi pedaqogika və pedaqoji psixologiya mütəxəssislərinin köməyinə ehtiyaclıdırlar. “İnklüziv məktəbə gələn hər bir uşaqla işləmək, hər birinə pedaqoji yanaşaraq fərdi yol tapmaq ümumtəhsil məktəb müəlliminin üzərinə düşür. Nə cür? Hansı yolla buna nail olmaq? Bu suallara bu gün birmənalı cavab yoxdur. Bunun üçün müəllim daim işləməli, axtarmalı, yenilikləri qəbul etməkdə cəsarətli olmalıdır” (Xüsusi psixofiziki..., 2016, s.66).

*İnklüziv təhsilin normative-sənəd bazasına nəzər salaq.*

İnklüziv təhsil "Təhsil hamı üçün" paradiqmasınm tərkib hissəsi kimi nəzərdə tutulub. İnklüziv təhsil hamı uşaqların, sağlamlıq imkanlarından, etnik, irqi, dini mənsubiyyətindən asılı olmayaraq, ümumtəhsil məktəbinin şagirdi olmaq, tipik və atipik uşaqlara birgə təlim almaq imkanı yaradır. Beləliklə, inklüziv təhsil ümumtəhsil məktəbinin missiyasının genişlənməsini, tipik və atipik uşaqların təhsil ehtiyaclarım təmin edilməsini nəzərdə tutur.

İnklüziyanın yaşamasının əsas səbəbləri kimi bu sahədə çalışan müəllimlərin təşəbbüskarlığını və işə həvəsini, cəmiyyətin pozitiv münasibətini və bu prosesin əvvəlində duran beynəlxalq cəmiyyətlərin (World Vision, UNISEF) fəaliyyəti qeyd oluna bilər.

Tipik və atipik uşaqların təhsil ehtiyaclarını ödəmək üçün, onlara keyliyyətli təhsil verməkdən ötrü ümumi təhsil sistemi daima və ardıcıl dəyişməlidir. Ölkəmizdə də son illərdə inklüziv təhsil yeni inkişaf mərhələsinə keçmişdir. "Azərbaycan Respublikasında təhsilin **inkişafı** üzrə Dövlət Strategiyası"ndan irəli gələn Fəaliyyət Pla**nında** "Sağlamlıq imkanları məhdud şəxslərin həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyası**nın** yaradılması" bəndinin qeyd olunması o deməkdir ki, dövlət orqanı inklüziv təhsilin yerli şəraitdə inkişaf etdirilməsinə görə məsuliyyəti öz üzərinə götürür. Plana əsasən, sağlamlıq imkanları **məhdud** şəxslərin inkişafı və inklüziv təhsili üzrə dövlət proqramının hazırlanması, təsdiqi və həyata keçirilməsi nəzərdə tutulur.

Ölkəmizdə inklüziv təhsilin konseptual bazası xüsusi təhsilin qlobal kontekstdə tranformasiyasına və inklüziv yanaşmaların inkişafına yönələn beynəlxalq sənədlərlə tənzimlənir:

- İnsan hüquqlarının Ümumi Deklarasiyası (BMT, 1948);
- Uşaq hüquqlarının Deklarasiyası (BMT, 1959);
- Təhsil sahəsində diskriminasiya ilə mübarizə Konvensiyası (UNESCO, 1960);
- Əqli geriliyi olan insanların hüquqları Konvensiyası (BMT, 1971);
- Uşaq hüquqları haqqında Konvensiya (BMT, 1989);
- Təhsil (əsas təhsil ehtiyaclarının ödənilməsi) haqqında Ümumdünya Deklarasiya (Comtyen, 1990);
- Xüsusi ehtiyacları olan insanların təhsilinin siyasəti, prinsipləri və bununla bağlı praktik fəaliyyət (Salamanka, 1994);
- Təhsilə dair Ümumdünya Forum (Dakar, 2000);
- Əlillərin hüquqları haqqında Konvensiya (BMT, 2006).

Bundan başqa dünyada bu sahədı bir sıra deklarasiyalar qəbul edlib.

1990-cı ildə Comtyendə qəbul edilmiş "Təhsil (əsas təhsil ehtiyaclarının ödənilməsi) haqqında Ümumdünya Deklarasiya" bütün ölkələrə uşağa və onun ehtiyaclarına istiqamətlənmiş, onun harmonik inkişafını təmin edən, fərdiliklərini maneə saymayan yeniləşmiş milli təhsil sisteminin yaradılmasını təklif edir. Salamahka Deklarasiyası (1994) xüsusi təhsil ehtiyacları olan insanlar üçün ümumi təhsil sistemi daxilində inklüziv təhsilin təşkilini təklif edir.

Təhsilə dair Ümumdünya Forum (Dakar, 2000) ümumi təhsil sistemi daxilində bütün uşaqlara təhsil almaq imkanlarının təqdim edilməsini təklif edir.

İnklüziv təhsilin sosial, pedaqoji və psixoloji əsasları mövcuddur.

***Sosial nöqtey-nəzərdən*** inklüziv təhsil şəxsiyyətlə cəmiyyət arasında olan dinamik balansa, şəxsiyyətin cəmiyyətə adaptasiyasına və inteqrasiyasına əsaslanır.

İnklüziv təhsilin ***pedaqoji əsaslarının*** təlim-tərbiyə nəzəriyyəsi, təhsilin ümumi qanunlan təşkil edir.

İnklüziv təhsilin ***psixoloji əsasları*** kimi şəxsiyyətin inkişafı nəzəriyyəsi, uşaq inkişafına erkən müdaxilə nəzəriyyəsi, uşaq inkişafında şəxsiyyətin psixi strukturlarının müəyyən edilməsi nəzəriyyəsi durur.

İnklüziv təhsil əsasını aşağıdakı prinsiplər təşkil edir:

- təhsil almaqda bərabər hüquqa malik olmaq;
şansların bərabərliyi prinsipi;
- uşaq maraqlarının aliliyi prinsipi;
- qeyri-ayrı-seçkilik, tolerantlıq və fərqlərin qəbul edilməsi prinsipi;
- erkən müdaxilə prinsipi;
- təhsil prosesinin fərdiləşdirilməsi və hər uşağın potensial imkanlarının istifadəsi prinsipi;

- dəstəklənmə prinsipi;
- adekvat təhsil mühitinin yaradılması;
- valideynin seçim etmək hüququ prinsipi;
- əməkdaşlıq və partnyorluq prinsipi.

İnklüziv təhsil vasitəsilə bir neçə funksiya həyata keçirilir.

Bunlar,

- cəmiyyətin bütün üzvlərinin təhsil ehtiyaclarının ödənilməsi;
- şəxsin həyat şəraitinə adaptasiyası və cəmiyyətə inteqrasiyası;
- uşaqların, gənclərin və böyüklərin təhsil ehtiyaclarını ödəmək üçün təhsilin məzmununun dəyişməsi;
- təhsil prosesində ayrı-seçkiliyə yol verməmək;
- uşaqların, gənclərin və böyüklərin təhsil ehtiyaclarının ödəmək üçün məktəbin və ümumiyyətlə cəmiyyətin reformasiyası;
- məktəbin uşaqların fərqlərinə adaptasiya olunması;
- təhsilin keyfiyyətinin təkmilləşdirməsi və s.

Azərbaycanda inklüziv təhsilin tətbiqinin normativ-sənəd bazası bir sıra beynəlxalq və milli sənədlərlə müəyyən edilir:

- Uşaq hüquqları haqqında Konvensiya (BMT, 1989) – Azərbaycan 1992 - ci ildə ratifikasiya edib;
- Əlillərin hüquqları haqqında Konvensiya (BMT, 2006) - Azərbaycan 2009 - cu ildə ratifikasiya edib;
- Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (Xüsusi ləhsili) haqqında Qanun (2001);
- Təhsil haqqında Qanun (2009);
- "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (2013);
- "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndan irəli gələn Fəaliyyət Planı (2015);
- Nazirlər Kabinetinin inklüziv təhsil haqqında sərəncamı.

İnklüzin təhsilin tətbiqində mərhələlilik gözlənilməlidir. Bir neçə mütləq mərhələdən aşağıdakılardır:

- xüsusi təhsil ehtiyacları olan uşaqların identifikasiyası (eyniləşdirilməsi, yəni eyni qruplara ayrılması);
- xüsusi təhsil ehtiyacları olan uşaqların ailə şəraitinin və mövcud yaşayış mühitini öyrənilməsi üçün inklüziv məktəblərdə məktəbdaxili çoxprofilli (multiprofilli) kimossiyaların yaradılması;
- inklüziya prosesində uşaqların və onların ailələrinin dəstəklənməsi;
- inklüziv mühitin yaradılması və inkişaf erilməsi məqsədilə pedaqoji kadrların hazırlığ, valideynlərin maarifləndirilməsi;
- inklüziyanın monitorinqi və qiymətləndirilməsi.

Hər bir inklüziv məktəbin sənədlərdə əks etdirilmiş mövqeyi vardır.

İnklüziv məktəbdə xüsusi təhsil ehtiyacları olan uşaqların dəstəklənməsi mərkəzinin yaradılması vacibdir. Belə bir mərkəz uşaqlara təhsildə yardımçı ola bilər.

Iklüziv təhsil müəssisəsində rəhbərin fəaliyyəti çox önəmlidir. Belə ki, inklüziv təhsilin prinsiplərini bilən və müəssisədə onu tətbiq edən rəhbər məktəb həyatında bütün uşaqların iştirakını təmin edir. O həmçinin pedaqoji kadrların hazırlığına da diqqət yetirir. Bundan başqa, xüsusi təhsil ehtiyacları olan uşaqların təlim-tərbiyəsi psixoloq, köməkçi müəllim və bir sıra mütəxəssislərin (erqoterapevt, sosial işçi və s.) iştirakı ilə həyata keçir.

Ümumiyyətlə inklüziv təhsillə bağlı standartlar mütləq tətbiq olunmalıdır. Standartlar inklüziyanın dərəcəsini, effektivliyini, pedaqoji resursları, maddi bazanı, məktəb mühitində qarşılıqlı münasibətləri və s. nəzərə almalıdırlar. Eyni zamanda standartlar inklüziv təhsilin inkişaf yollarını göstərə bilər.

Müasir təhsil humanist istiqamətli və şəxsiyyətyönümlü olmalı, hər insanı bir dəyər kimi qiymətləndirməlidir. Respublikada inklüziv təhsilin həyata keçməsi, yəni sağlamlıq imkanları məhdud uşaqların ümumtəhsil mühitə daxil edilməsi təkcə zamanın əksi və tələbi deyil. O, həm də uşaqların qanuni təhsil hüququnun həyata keçməsidir. İnklüziv təhsil ümumiyyətlə xüsusi

ehtiyacları olan uşaqların və onların ailələrinin həyatının keyfiyyətinin artırılmasını, onların uğurlu adaptasiyasını nəzərdə tutur.

Müasir təhsil şəraiti elə olmalıdır ki, xüsusi təhsil ehtiyacı olan uşaq öz potensial imkanlarını həyata keçirə bilsin. Sağlamlıq imkanları məhdud uşaqların təhsili, sosial-mədəni mühitə inklüziyası hazırda nəinki pedaqogikanın, həm də psixologiya və sosiologiyanın aktual problemidir. Təcrübə göstərir ki, əgər xüsusi təhsil ehtiyacları olan uşaq erkən yaşından sağlam həmyaşıdları ilə birgə böyüyürsə, onun sosializasiyası daha qənaətbəxş, inkişafı isə daha yüksək olur.

Burada bir qədər inklüziv təhsilin prioritetləri aşağıdakılardır:
- sosial adaptasiyanın prioriteti (hər bir yaşda);
- bütün yaş mərhələlərində arasıkəsilməz inklüziv prosesin təmin edilməsi prioriteti (varislik);
- kommunikativ bacarıqların inkişafı prioriteti;
- əlillərin və xüsusi təhsil ehtiyaclan olan uşaqın ailəsinin süni izolyasiyasının qarşısı alınması prioriteti;
- inklüziv təhsilin mərhələlərlə və evolyusiya yolu ilə inkişaf etdirilməsi.

Qeyd olunan prioritetlərin effektiv realizasiyası inklüziv təhsilin və onun ayrı-ayrı struktur komponentlərinin psixoloji - pedaqoji müşayiəti olmadan mümkün deyil, çünki inklüziv təhsil prosesi həm təşkili nöqteyi nəzərdən, həm də məzmunca çox mürəkkəb prosesdir. Göründüyü kimi, inklüziv təhsil modelinin yaradılması həm mürəkkəb, həm də nəinki təhsildə, bütün cəmiyyətdə dəyişikləri tələb edən bir təhsil modelidir.

## Nəticə

Şübhəsiz ki, inklüziv təhsilin kökü xüsusi təhsilə dayanır. Bu səbəbdən də dünya təcrübəsində inlküziv təhsil əsasən xüsusi təhsilin bir forması kimi qəbul edilir. Daha səmərəli inklüziv təşkil etmək üçün xüsusi təhsilin uzun illər boyu formalaşmış zəngin təcrübəsindən istifadə olunur. Hətta bəzi sivil ölkələrdə xüsusi və inklüziv təhsil arasında sıx əlaqə mövcuddur.

Təhsilin müasir fəlsəfəsi tələb edir ki, təlim prosesi zamanı akademik biliklərin yükünü artırmaq yox, şagirdlərin social, mədəni və ünsiyyət bacarıq və vərdişlərinin inkişafına diqqət yetirmək lazımdır. Məhz bu nöqteyi-nəzərdən inklüziv təhsil anlayışı daha geniş və ciddi məna kəsb edir.

## Ədəbiyyat

1. Xüsusi psixofiziki inkişafa malik uşaqların tərbiyə və təlimi Bakı: “TUNCAY 12”MMC, 2016, 400 səh.
2. Tim Loreman, Joanne Deppler, David Harvey. İnklüziv Təhsil Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi məlumatlar
3. Lacey,P. On a Wing and a Prayer: Iclusion and Childen with Svere Learning Difficulties London: Mencap.1999
4. Mitchell, D. What Really Works in Special and Inclusive Educatoin Using evidence-based teaching Strategies.Abingdon, Oxon 2008
5. Bernall, S.L, (2003) “Theoretical and applied issues in defining disability in labor market research” in Journal of Disability Policy Studies, 14 (1), p.36.
6. Jeon, Y Haider-Markel, D.P. (2001), “Tracing issue definition and policy change: An analysis of disability issue images and policy response” in Policy Stusies Journal, 29 (2), p.215
7. Azərbaycanda sağlamlıq imkanları məhdud olan uşaqlara təhsil xidmətlərinin göstərilməsi haqqında tədqiqat. 2020
8. N.T.Hüseynova. İnklüziv təhsil. ADPU mətbəəsi, Bakı, 2014, 180 s.
9. S.Qasımov. Defektoloji terminlərin izahlı lüğəti. Bakı, 2002, 125 s.
10. https://azadinform.az/az/sosial/179929/inkluziya-inkluziv-tehsil-ve-onun-tarixi/
11. https://tehsil.com.az/inkluziv-tehsil/
12. https://www.ens.az/az/inkluziv-tehsil-nedir

Göndərilib: 18.12.2021 Qəbul edilib: 05.01.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/74/45-51

**Yaqut Ömər qızı Mustafayeva**
Ağdaş şəhər 1 saylı məktəbi
müəllim
yagut.mustafayeva@mail.ru
**Xanım Ağasəf qızı Qasımova**
Bakı şəhəri 220 saylı məktəb-lisey
filologiya üzrə fəlsəfə doktoru
khanim.gasimova@gmail.com

# DƏRSLİK MÜZAKİRƏSİ. ƏDƏBİYYAT: X SİNİF

**Xülasə**

Orta ümumtəhsil məktəblərində artıq neçə illərdir ki, kurikulumla dərs keçilir (Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 2009-cu il) Lakin buna baxmayaraq, problemlər hələ də həddən artıq çoxdur. Bəziləri bu problemlərin kökündə müəllimlərin, bəziləri təhsilalanların, bəziləri valideynlərin dayandığını söyləyir. Lakin çoxluq bunun daha çox dərsliklərlə bağlı olduğunu fikrini dəstəkləyir. Bu gün-bütün dünyada təhsilin daha çox məntiqə əsaslandığı, kütləvi şəkildə informasiya texnologiyalarına qoşulduğu bir zamanda təhsildə geri qalmaq, dünya ilə ayaqlaşmamaq ən azı öz xalqına, öz övladına qarşı bağışlanmaz səhvolardı. Buna görə sosial şəbəkələrdə gedən haqlı, haqsız danlamalar, bir-birini günahlandırmalar çox olur. Bütün bunlar bu məsələnin geniş elmi araşdırmasını və həllini tələb edir. Bu məqalə ilə biz bu məsələ barədə aparılmış araşdırmaların nəticəsi kimi çıxış etdik.

***Açar sözlər**: dərslik, müzakirə, təklif, mövzu, məktəb*

**Yagut Omar Mustafayeva**
**Khanim Aghasaf Gasimova**

## Textbook discussion. Literature: X class

**Abstract**

Despite the fact that the curriculum has been taught in secondary schools for many years, there are still many problems [Law of the Republic of Azerbaijan "On Education", 2009]

Although some say that teachers, some students, and some parents are at the root of these problems, many say it is more about textbooks. Today, at a time when education is more based on logic all over the world, and people are increasingly connected to information technology, it would be an unforgivable mistake to be left behind in education, not to keep pace with the world, at least for its own people and children. Therefore, there are many justified and unjustified reprimands and accusations on social networks. All this requires extensive scientific research and resolution of this issue. In this article, we present the results of our research on this issue.

***Key words**: textbook, discussion, suggestion, topic, school*

Hər gün deyil, bəlkə, hər an dəyişən və sürətlə inkişaf edən dünyamızda təhsil dəyişməz və bir nömrəli müzakirə mövzusu olaraq qalır. Müstəqillikdən sonra leksikonumuza daxil olan kurikulumun tam öyrənilməsi başa çatmadan bütün dünyanı saran pandemiya aralığa girdi, onlayn dərs, distant tədris, ənənəvi dərs, qarışıq təlim və s. kimi ifadələr tədrisimizə daxil olaraq dolaşıqlığı bir az da artırdı. ("Distant təhsil, qarışıq təhsil və onlayn təhsil nədir?" Günay Əhmədli, 2020-ci il)

Məlumdur ki, sürətlə inkişaf edən dünya ilə ayaqlaşmaq və ondan geri qalmamaq üçün təhsil çox böyük önəm kəsb edir. Təhsilin inkişafı isə daha çox dərsliklərdən, onların müasir tədrisin tələblərinə nə dərəcədə cavab verməsindən asılıdır. Dərsliklərə münasibət isə birmənalı deyildir. O üzdən dərslik müzakirəsi hər zaman aktual mövzu olaraq qalmaqdadır. "Nəzərə almaq lazımdır ki, dərsliyin hazırlanmasının əsas mərhələsi onun mətninin yazılmasıdır. Onu da qeyd etnək lazımdır ki, bütövlükdə dərsliyin hazırlanması işi bir-birinə bağlı zəncirvari mərhələlərdən ibarət deyildir. Əgər kitabı bir neçə

müəllif yazırsa, elə etmək lazımdır ki, onlar birgə işləsinlər. Məsələn, -- yazıların hamısını eyni üsluba gətirmək və ardıcıllığını yoxlamaq (və ya müəyyənlışdirmək) üçün bir nəfər ayrılmalldır. Müəlliflərdən hər biri müəyyən edilmiş ardıcıllıqla öz mətnini həmkarlarının diqqətinə təqdim etməlidir. Yaradıcı qrupun bütün üzvlərini toplamaqla mübahisəli məsələlərə dair fikir mübadiləsi aparılıb vahid rəyə gəlmək və növbəti işləri müəyyən etmək olar ("Dərslik necə olmalıdır?" Fransua-Mari Jeraрın, Ksavye Rojyenin "Məktəb dərsliklərinin hazırlanması və təhlili" əsasında hazırlanmışdır. Bakı-2003, s.12)

Elə kitablar var ki, biz bəyənsək də, bəyənməsək də, həyatımıza daxil olur və hər cümləsini, hər səhifəsini oxumalı, öyrənməli oluruq. Bu, orta məktəb dərsliyidir. Bütün dövrlərin aynası sayıla bilən dərsliklər yeni nəsil yetişdirir, formalaşdırır, həm elmi biliklərini, həm də dünyagörüşünü zənginləşdirir. Bu dərsliklər içərisində biri var ki, o həm də həyatı öyrədir. Sözsuz ki, söhbətin ədəbiyyat dərsliklərindən getdiyuni duydunuz. (Ədəbiyyat, dərslik, 10-cu sinif, Soltan Əliyev, Bilal Həsənov, Aynur Mustafayeva, Bakı: Nəşr 2017)

Bu gün elmi-texniki tərəqqi dövrünü yaşasaq da, duyğu, ruh və estetik zövqdən məhrum vətəndaşın cəmiyyət üçün heç bir faydası olmadığı bəllidir.

Orta məktəblərdə ədəbiyyat fənninin ardıcıl və elmi tədrisi X sinifdən başlandığından bu sinfə aid dərslik də daha çox müzakirə obyektidir və bu kiçik məqalə ilə X sinfin dərsliyinə aid sosial şəbəkələrdə gedən müzakirələr və onun nəticələri barədə fikirlərimizi bildirməyə çalışacağıq.

Ədəbiyyat dərsliyi şagirdlərin həm elmi biliklərini, həm də dünyagörüşünü zənginləşdirir. Unutmaq olmaz ki, ədəbiyyat fənni digər fənlərə bənzəməz, çünki ədəbiyyat həm də şagirdlərdə estetik zövq yaradır, bir növ mənəvi istirahət rolu oynayır, onun beynini, ruhunu dincəldir. Ona görə də ədəbiyyatın tədrisi seçdiyi ixtisasdan asılı olmayaraq hər şagird üçün maraqlı, sevimli, bir növ həsrətlə gözlənilən dərs olmalıdır.

Bir qrup ziyalının dərsliklərin müzakirəsi ilə bağlı sosial şəbəkədə apardığı müzakirələr bu məsələyə ciddi və məsuliyyətlə yanaşmağın vacibliyini bir daha nəzərə çatdırır.

Yeni təhsil sistemi həm təhsilverən, həm də təhsilalandan keyfiyyət göstəricisinin yüksək olmasını tələb edir. Nəzərə alsaq ki, ədəbiyyat dərsliyi həm də mənəviyyat, tərbiyə dərsliyidir, o zaman bu işin ciddiliyi bir az da artmış olur.

Əvvəlcə X sinif ədəbiyyat dərsinin tədrisinə dair dövlət tələbini və verilmiş standartları nəzərdən keçirək.

Digər dərsliklər kimi, X sinif ədəbiyyat dərsliyinin də Təhsil sənədində nəzərdə tutulmuş məzmun xəttinə, standartlara uyğun qurulması müəlliflərdən müəyyən peşəkarlıq tələb edir. Bir neçə məktəb dərsliyinin müəllifi kimi bilirəm ki, dərslik yazmaq işinin çətinliyi də məhz bundadır. Seçilmiş bədii, nəzəri mətnlərin şagirdlərin yaşı, dünyagörüşü səviyyəsinə uyğunluğu "yüz ölçülüb bir biçilməlidir". Təhsil haqqında dövlət sənədində ədəbiyyatın tədrisi ilə bağlı deyilir:.

"X sinfin sonunda şagird:

- ifadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması və təhlili məqsədi ilə istifadə edir;
- müxtəlif ədəbi növdə olan əsərlərin məzmununu qavrayır, fakt və hadisələr, obrazlarla bağlı yazıçı mövqeyini aydınlaşdırır;
- əsərin mövzusunu, ideyasını, başlıca problemini, obrazlarını səciyyəsini müəyyənləşdirir, bağlı olduğu dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə ona qiymət verir;
- çoxsüjetli epik və dramatik əsərləri, lirik şeirləri bədii xüsusiyyətlərinə görə təhlil edir;
- şifahi məlumatlarda, bədii əsərlə bağlı müzakirələrdə mövzu, problemin mahiyyəti barədə dinləyicilərdə aydın təsəvvür yaratmaq üçün müxtəlif mənbələrdən sitatlar seçir, bədii nümunələrdən bəhrələnir;
- müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktin həlli yollarına münasibətini tutarlı dəlillərə əsaslanmaqla ifadə edir (Ədəbiyyat, Metodik vəsait, Soltan Əliyev, Bilal Həsənov, Aynur Mustafayeva Bakı nəşr, 2017)

Bəli, 10-cu sinif şagirdi tədris ilinin sonunda anlama, yazı, şifahi nitq bacarıqlarına sahib olmalı, söz ehtiyatını zənginləşdirməlidir. Bəs, görəsən, dərsliklər bu tələbləri yerinə yetirmək üçün qənaətbəxşdirmi?

X sinfin ədəbiyyatına dair verilən dövlət standartlarına nəzər salaq. Ədəbiyyatın bu sinif üçün 1-ci məzmun xətti, əsas və alt standartları belədir:

1. Ədəbiyyat və həyat həqiqətləri.

1.1. Bədii nümunələrin məzmununun mənimsədiyini nümayiş etdirir.

1.1.1. Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir.

1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir.

1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir.

1.1.4. Müxtəlif ədəbi növ və janrlarda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. (Ədəbiyyat, Metodik vəsait, Soltan Əliyev, Bilal Həsənov, Aynur Mustafayeva Bakı nəşr, 2017)

Göründüyü kimi, məzmun xəttinin 1-ci əsas standartı təhsilalanın "bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdir"məsidir. Bəs dərslik necə? Buna imkan verirmi? Dərslikdə bədii əsərlərin məzmunu haqqında verilənlərə ümumi nəzər salaq:

1. Azərbaycan şifahi xalq ədəbiyyatı: şifahi xalq ədəbiyyatımız çox zəngindir, lakin ona dair seçilmiş nümunələr çox zəif və azdır. Təhsil alan bu nümunələrlə şifahi ədəbiyyatımızı nəinki sevə, heç ümumi anlayış əldə edə bilməyəcək. Nəzərə alsaq ki, şagirdlər aşağı siniflərdə şifahi ədəbiyyatımızın ayrı-ayrı nümunələri ilə tanış olublar, lakin aşağı siniflərdə keçilən nümunələr də müxtəlif və rəngarəng deyil, tam təsəvvür yaratmır. Yenə də ən azından həmin mövzular X sinif şagirdinə tapşırıq kimi verilərək xatırlana bilərdi. (tapşırıqlar barədə ayrıca bəhs ediləcəkdir)

2. "Kitabi-Dədə Qorqud". Bu möhtəşəm abidə Azərbaycanın dünya mədəniyyətinə bəxş etdiyi mükəmməl əsərdir. Onun ayrı-ayrı boyları aşağı siniflərdən öyrənilir və bu boylar sadələşmiş formada verilir. Yaxşı olar ki, həmin boylar həm orijinalda olduğu kimi, həm də təhsilalanların tam anlaması üçün müasir dilimizə uyğun sadələşmiş formada verilsin (Qeyd: təklif Şəhla Əhmədovaya məxsusdur). Bununla şagird o dövrün ədəbi dili ilə də tanış olmuş olar). (Dədə Qorqud, 2001, № 1)

3. Nizami Gəncəvi. Bu dahinin bütün əsərləri öyrənilməyə layiq və mütləqdir. "İsgəndərnamə" əsərinin seçilməsi pis deyil, amma çox kiçik bir hissə verilib ki, bununla əsərin məzmununu tam şəkildə öyrənmək qeyri-mümkün görünür (Nizami Gəncəvi irsində elm anlayışı və elmi kəşflərə baxış? 525-ci qəzet, Bakı, 2021)

4. M.Füzuli. "Leyli və Məcnun" əsərinin seçilməsi təqdirəlayiqdir. Lakin burda da orijinal variantla yanaşı hər beytin sətri tərcüməsinin verilməsi əhəmiyyətli olardı. Şairin "Səhhət və Mərəz" əsərində çox gözəl və bu gün üçün əhəmiyyətli olan məqamlar vardır (insan bədəninin ölkəyə (vətənə), ayrı-ayrı bədən üzvlərinin məmurlara bənzədilməsi, ölkənin idarə olunmasında və müstəqil olmasında onların rolu, xəstəliklərin xarici düşmənə bənzədilməsi, zəif düşmüş ölkəyə "hücümu" və s.) şagirdlərdə böyük maraq yaradacağını və zamanla əlaqəsini nəzərə alaraq dərsliklərə salınmasını məqsədəuyğun hesab edirəm (Araslı H.Böyük Azərbaycan şairi Füzuli, Bakı, 1958)

5. M.P.Vaqifin "Pəri" əsəri ilə onun yaradıcılığı haqqında təhsilalan nə düşünər və ona necə qiymət verər? və s.

Fikrimizcə, X sinfin dərsliyinə salınmış bədii nümunələr onun məzmununu tam mənimsəməyə yararlı deyil.

Ədəbiyyat və həyat həqiqətləri məzmun xəttinin 2-ci əsas xəttində deyilir:

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

Bu əsas xətt artıq məzmunu öyrənilmiş bədii əsərlərin təhlili ilə əlaqədardır. Təəssüflə qeyd etmək istərdim ki, məzmunu tam öyrənilə bilməyən bədii nümunənin təhlilində də çatışmazlıqların olması labüddür. Xüsusilə qeyd etmək lazımdır ki, dərslikdə bədii əsərlərin təhlili elə tərzdə verilib ki, bu, yalnız humanitar sahəni seçən şagird üçün maraqlıdır, həm də bu maraq ancaq seçilmiş ixtisasla əlaqədardır. Şagirdlər isə əsərin təhlili barədə kitabda yazılanları cümləbəcümlə əzbərləməkdən başqa şıxış yolu görmürlər.

Dərslik müzakirəsi zamanı bir sıra dəyərli təkliflər, fikirlər irəli sürüldü. Bu təkliflərinin dərsliyin təkmilləşməsinə fayda verəcəyinə inanırıq.

Yeni ədəbiyyat dərsliklərinin nəşrinə kömək olaraq özümüzün və digər ziyalıların tövsiyə, təklif və fikirlərini çatdırmaq istərdik.

Beləliklə, aşağıdakı təklifləri nəzərinizə çatdırmaq istərdik:

"1. "Kitabi-Dədə Qorqud" dastanının dərslikdə orijinal varıantını və qarşısında dili sadələşdirilmiş parçanı yerləşdirmək.

2. "Koroğlu" dastanı ilə bağlı Paris nüsxəsindən deyil, Hümmət Əlizadə nüsxəsindən istifadə etmək ("Koroğlu", Hümmət Əlizadə, Bakı, 1941)

## TECHNICAL SCIENCES

DOI: https://www.doi.org/10.36719/2663-4619/74/73-79

**Şahlar Mahmud oğlu Babayev**
Azərbaycan Dövlət Aqrar Universiteti
texnika elmlər doktoru, dosent
shaxlaraqromexanika@mail.ru

# YÜK AVTOMOBİLİNİN HƏRƏKƏTİ ZAMANI YEDƏYİNİN VƏZİYYƏTİNİN AVTOMATİK TƏNZİMLƏNMƏSİ ÜÇÜN İNTİQAL MEXANİZMİNİN İŞLƏNMƏSİ

**Xülasə**

Məqalə yük avtomobilinin hərəkəti zamanı onun yedəyinin vəziyyətini avtomatik tənzimlənməsi üçün intiqal mexanizminin işlənməsi məsələsinə aiddir. Təklif olunan intiqal mexanizminin tətbiqi nəticəsində yük avtomobilinin yedəyinin həm yolun eni üzrə, həm də yol boyu relyefdən asılı olmayaraq, təklif olunan intiqal mexanizminin tətbiqi nəticəsində yek avtomobilinin yedəyinin vəziyyətini avtomatik tənzimləməyə-işə başlamazdan əvvəlki vəziyyətə gətirməyə imkan verir. Bu məqsədlə patent səviyyəsində işlənmiş yeni siqnal qurğusunun köməyi ilə avtomatik idarə olunan çoxbəndli (fəza) intiqal mexanizmi işlənmişdir.

***Açar sözlər:*** *yük avtomobili, hərəkət, yedək, avtomatik tənzimləmə, siqnal qurğusu, intiqal, mexanizm, işlənmə*

**Shahlar Mahmud Babayev**

## Development of integrated mechanisms for automatic regulation of the position of the trouble during the movement of a truck

**Abstract**

The article deals with the development of a transmission mechanism for automatic adjustment of the position of the tow truck during its movement. The application of the proposed transfer mechanism allows the truck tow to automatically adjust the position of the tow of the truck as a result of the application of the proposed transfer mechanism, regardless of the width of the road and along the road. For this purpose, a multi-point (space) transmission mechanism automatically controlled with the help of a new patent-level signaling device has been developed.

***Key words:*** *truck, movement, tow, automatic adjustment, alarm device, transmission, mechanism, processing*

Aparılmış çoxsaylı analitik tədqiqatların nəticələrindən məlumdur ki, dənəvər və ya toz halında olan materialların-kənd təsərrüfatı bitkiləri toxumlarının, pestisidlərin, mineral gübrələrin, tikinti materiallarının və s. daşınması zamanı yük avtomobilinin həm yol boyu, həm də yolun eni üzrə relyefdən asılı olmayaraq meyllənməsi nəticəsində flora və faunamız-ətraf mühit, torpaqlar, su mənbələri çirkləndirilir. Yük avtomobillərindən toz və ya dənəvər materialların insanların yaşayış yerlərində, həmçinin turizm və istirahət zonalarının yerləşdiyi dağlıq və dağətəyi coğrafi zonalarda daşınması zamanı yaranan problemləri, həmçinin yüklü avtomobillərin yedəyinin adıgedən meyllənmələr nəticəsində təkərlərinin, müxtəlif birləşmələrinin, fiziki aşınmalar nəticəsində daha tez sıradan çıxdığını (1) nəzərə alsaq, onda qarşıya qoyulan problemin aktuallığı istisna təşkil etməz.

Aktuallığını nəzərə alaraq tərəfimdən aparılan tədqiqat işləri nəticəsində yük avtomobilinin yedəyinin onu işə buraxmazdan əvvəlki vəziyyətinin yeni siqnal qurğusunun köməyi ilə avtomatik idarə olunan çoxbəndli (fəza) intiqal mexanizminin avtomatik tənzimlənməsi üçün qurğuya patent alınmış, onun müxtəlif elementlərinin forma və parametrləri əsaslandırılmışdır. (2)

Yeni siqnal qurğusunun köməyi ilə avtomatik idarə olunan çoxbəndli (fəza) intiqal mexanizminin köməyilə təklif olunan-yük avtomobilinin yedəyinin eyni vaxtda həm yolun eni üzrə, həm də yol boyu relyefdən asılı olmayaraq yaranan meyllənmələr aradan qaldırılır. Bu məqsədlə yük avtomobilinin hərəkəti zamanı onun yedəyinin-döşəməsinin horizontal vəziyyətini bərpa edən, böyük texnoloji imkanlara malik, avtomobilin arxa təkərlərinin arasında quraşdırılan yeni siqnal mexanizmi vasitəsilə idarə olunan, yük avtomobilinin yedəyi ilə onun gövdəsini birləşdirən oynaqlı, çoxbəndli fəza mexanizmi təklif olunur. Siqnal mexanizminin gövdəsi ilə oynaqlı kinematik əlaqədə olan, onun lingində dönmə imkanı ilə oturdulmuş şaquli oymaqla, simmetriya oxu həmin oymağın simmetriya oxuna perpendikulyar, onunla sərt əlaqələndirilmiş üfüqi oymağın (şaquli və üfüqi oymaqlar kombinəedilmiş oymağın hissələridir) içərisində dönmə imkanı ilə oturdulmuş barmaqcıqla sərt əlaqələndirilmiş, həmçinin, siqnal mexanizmini avtomobilin oxuna birləşdirən oymaqla sərt əlaqədə olan bənddə açılmış sferik yuvada quraşdırılmış-oxu ətrafında dönən kürəcikdən keçən digər bəndin həmin barmaqcığı fırlatması (yolun eni üzrə relyefdən yaranan), həmçinin, siqnal mexanizminin lingində oturdulmuş şaquli oymağın dönməsi (yol boyu relyefdən yaranan) sonsuz vint reduktorlarının köməyi ilə yedəyin oynaqlı fəza mexanizminə ötürülür və yük avtomobilinin yedəyinin döşəməsinin yük avtomobilini işə buraxmazdan əvvəlki - horizontal vəziyyəti tənzimlənir. Siqnal mexanizminin texnoloji imkanlarını artırmaq – avtomobilin hərəkəti zamanı epizodik təsirlərdən – yolun relyefinin dəyişməsindən yaranan arzuolunmaz meyllənmələrin aradan qaldırılması üçün onun gövdəsi həm siqnal mexanizminin lingi ilə, həm də gövdəni avtomobilin oxuna birləşdirən oymaqla yay vasitəsilə əlaqələndirilmişdir. Əlaqələndirmədə məqsəd siqnal mexanizminin lingi ilə sərt əlaqədə olan yükün yolun relyefi hesabına yox, ətalətin yaratdığı - texnoloji prosesi pozan meyllənmələrin söndürülməsidir.

Yük avtomobili yedəyinin vəziyyətinin avtomatik tənzimlənməsi üçün intiqal mexanizminin avtomobil üzərində quraşdırıldığı vəziyyətdə yolun eni üzrə (avtomobilə arxadan baxdıqda) və yol boyu (avtomobilə yandan baxdıqda) yolun relyefindən asılı olaraq avtomobilin vəziyyətləri müvafiq olaraq şəkil l (a, b, c)-də və şəkil 2 (a', b', c')-də verilmişdir. Siqnal qurğusunun yandan - (A görünüşü-şəkil 1a) və arxadan - (B görünüşü-şəkil 3) vəziyyətləri müvafiq olaraq şəkil 3 və 4-də, çoxbəndli oynaqlı fəza mexanizminin kombinə edilmiş oymaqla və siqnal qurğusunun lingi ilə sərt əlaqədə olan sonsuz vint reduktorlarının ümumi görünüşü müvafiq olaraq şəkil 5 a və b-də, avtomobilin yedəyini isə onun arxa təkərinin oxu ilə əlaqələndirən çoxbəndli oynaqlı fəza mexanizminin ümumi görünüşü (I qopartması) şəkil 6-da verilmişdir.

Yük avtomobilinin yedəyinin vəziyyətinin avtomatik tənzimlənməsi üçün intiqal mexanizminin quruluşu aşağıdakı kimidir: yük avtomobilinin yedəyinin vəziyyətini avtomatik tənzimləyən qurğu yüklə 1 (şək. 1) təmin olunmuş lingi 2 yük avtomobilin 3 (şək. 2) arxa təkərlərinin 4, 5 oxunun 6 orta hissəsində olmaq şərti ilə oymaq 7 vasitəsilə avtomobilin arxa təkərinin oxuna 6 bərkidilmiş siqnal qurğusundan, onunla kinematik əlaqələndirilmiş oynaqlı fəza mexanizmindən 8 ibarətdir. Siqnal qurğusunun gövdəsi 9 ilə şaquli oymaqda 10 (şək. 3, 4, 5) hərəkətli oturdulmuş onun lingine 2 və gövdəni 9 avtomobilin oxuna 6 bərkidən oymağa 7 nəzərən arzuolunmaz meyllənmələrini söndürən yaylar 12, 13 vasitəsilə əlaqələndirilmişdir. Kombinə edilmiş oymağın 11 üfüqi oymağı 14 (şək. 4,5) içərisində öz oxu ətrafında dönmə imkanı ilə oturdulmuş barmaqcıq 15 (şək. 5), siqnal mexanizminin gövdəsini 9 avtomobilin 3 oxuna 6 bərkidən oymaqla 7 sərt əlaqədə olan digər bənddə 16 açılmış yuvada öz oxu ətrafında dönmək imkanı ilə oturdulmuş kürəciyin 17 (şək. 3, 4) diametral deşiyindən keçən bəndlə 18 (şək. 3, 4) sərt əlaqədədir. Yük avtomobilinin yedəyinin vəziyyətinin avtomatiik tənzimlənməsi üçün intiqal mexanizmində avtomobilin 3 yedəyi 19 (şək. 1, 2) onun arxa təkərlərin oxu 6 ilə sərt əlaqədə olan müstəvi səthli düzbucaqlı tənəkə 20 (şək. 1, 6) ilə çoxbəndli oynaqlı fəza mexanizmi 8 vasitəsilə kinematik əlaqələndirilmişdir. Oynaqlı fəza mexanizminin 8 tənəkə 20 ilə gövdələri vasitəsilə sərt əlaqədə olan oynaqlar 21, 22 (şək. 6) ətrafında dönən bəndlərinin 23, 24 bir-birinə nəzərən hərəkət etmək imkanı ilə görüşdüyü-oynaq 25,

müvafiq oynaqlar 26, 27 ətrafında dönən bəndlərin 28, 29 görüşdüyü oynaqla 30 mil 31 vasitəsilə kinematik əlaqədədir. Oynaqlı fəza mexanizminin bəndləri avtomobilin 3 yedəyinin döşəməsi 19 ilə gövdələri vasitəsilə sərt əlaqədə olan oynaqların 32, 33, 34, 35 köməyi ilə kinematik əlaqələndirilmişdir. Milin 31 ortasında quraşdırılmış bəndin 36 içərisində onun oxu boyu bir-birindən kiçik məsafədə oynaqlı yerləşdirilmiş daxilində yiv açılmış kürəciklər 37, 38 tənəkənin 20 bir-birinə perpendikulyar tərəfləri ilə oynaqlı kinematik əlaqədə olan qayka-vint cütlərinin 39, 40 köməyi ilə kinematik əlaqələndirilmişdir. Yük avtomobilinin yedəyinin vəziyyətinin avtomatiik tənzimlənməsi üçün intiqal mexanizmində həm yol boyu, həmçinin, yolun eni üzrə relyefdən asılı olmayaraq (şəkil 1 b, c və şəkil 2 b', c') siqnal qurğusunun linginin eyni vaxtda həm bərkidildiyi gövdəyə (α), həmçinin, gövdə ilə birlikdə onun oxu ətrafında dönməyə (β) uyğun qiyməti qeydə alıb, yük avtomobil yedəyinin döşəməsinin vəziyyətini onu işə buraxmazdan əvvəlki vəziyyətə tənzimləmək üçün siqnal qurğusunun lingi, həmçinin, kombinə edilmiş oymaqla sərt əlaqədə olan oynaqlı çoxbəndli fəza mexanizminin sonsuz vint reduktorları 41, 42 (şək. 5) quraşdırılmışdır. Kombinə edilmiş oymaqla 11 sərt əlaqədə olan reduktorun 42 aparan valı 43 üfüqi oymaq 14 içərisindəki barmaqcıqla 15, ling 2 ilə sərt əlaqədə olan reduktorun 41 aparan valı 44 isə şaquli oymaqla 10 sərt əlaqədə olan dişli çarxlar cütü ilə (müvafiq olaraq 45, 46) kinematik əlaqələndirilmişdir. Reduktorların 41, 42 aparılan valları 47, 48 qayka-vint cütləri 39, 40 ilə oynaqlı birləşməli teleskopik vallar (şəkildə görünmür) vasitəsilə birləşdirilmişdir.

Yük avtomobilinin yedəyinin vəziyyətinin avtomatiik tənzimlənməsi üçün intiqal mexanizminin iş prinsipi aşağıdakı ardıcıllıqla həyata keçirilir: işə buraxmazdan əvvəl yük avtomobil yedəyinin 19 döşəməsi üfiqi vəziyyətə gətirilir, siqnal qurğusunun lingi 2 (şək. 1) avtomobilin 3 arxa təkərlərinin 4, 5 oxunun 6 orta hissəsində olmaq şərti ilə, həmçinin, siqnal qurğusunun lingi 2 və onun gövdəsini 9 avtomobilin 3 oxuna 6 bərkidən oymaqla 7 sərt əlaqədə olan digər bəndinin 16 bir müstəvidə olmasını və paralelliyini təmin etməklə oymaq 7 vasitəsilə avtomobilin oxuna 6 bərkidilir. Siqnal qurğusunun lingində 2 oturdulmuş kombinə edilmiş oymağın 11 şaquli oymağının 10 və üfüqi oymaq 14 içərisindəki barmaqcığın 15 dönməsinə - (müvafiq olaraq - β və α) uyğun qiymətə müvafiq avtomobil yedəyinin döşəməsinin vəziyyətini avtomatik tənzimləmək üçün siqnal qurğusunun lingi, həmçinin, kombinə edilmiş oymaqla sərt əlaqədə olan çoxbəndli oynaqlı fəza mexanizminin sonsuz vint reduktorları 41, 42 (şək. 5) quraşdırılır. Reduktorların 41, 42 aparılan valları 47, 48 qayka-vint cütləri 39, 40 ilə oynaqlı birləşməli, teleskopik vallar (şəkildə görünmür) vasitəsilə birləşdirilir. Yük avtomobilinin 3 yedəyi çoxbəndli oynaqlı fəza mexanizminin 8 köməyi ilə avtomobilin oxu ilə kinematik əlaqələndirilir, sonra yük avtomobilinin vəziyyətini avtomatik idarə edən intiqal mexanizmi işə buraxılır.

Yük avtomobilinin 3 hərəkəti zamanı həm yolun eni üzrə, həmçinin, yol boyu (yaxud da eyni vaxtda hər ikisinin təsirindən) yük avtomobili yedəyinin döşəməsinin ilkin üfiqi vəziyyətindən meyllənmələrinə müvafiq olan üfüqi oymaq 14 içərisindəki barmaqcığın 15 və (və ya) şaquli oymağın 10 dönməsi ötürmə ədədi vahidə bərabər dişli çarxlar cütünün köməyi ilə müvafiq olaraq kombinə edilmiş oymaq 11 və siqnal qurğusunun lingində 2 sərt oturdulmuş, ötürmə ədədi vahidə bərabər olan reduktorların 42, 41 aparılan vallarından 48, 47 oynaqlı birləşməli-teleskopik vallar (şəkildə görünmür) vasitəsilə, həmçinin, qayka-vint cütlərinin köməyi ilə çoxbəndli oynaqlı fəza mexanizminə ötürdüldüyündən, siqnal qurğusunun lingində qeydə alınan meyllənmələr sinxron olaraq oynaqlı fəza mexanizmi ilə sərt əlaqədə olan yük avtomobilinin dayanıqlı və səlis işini təmin edir.

Təklif olunan avtomatlaşdırılmış intiqal mexanizminin müxtəlif elementlərindən istifadə etməklə ondan, həmçinin kənd təsərrüfatı bitkilərinin zərərverici və xəstəliklərinə qarşı kimyəvi preparatlarla çilənməsi zamanı sahənin relyefindən asılı olaraq çiləyicinin ştanqının həm ştanqın en götürümü üzrə, həm də hərəkəti istiqamətində meyllənməsini aradan qaldırmaq olar. Beləki, hazırda məlum ştanqlı çiləyicilərdə adıgedən intiqal mexanizmindən istifadə olunmaması nəticəsində ucluqlardan təzyiq altında xaric olan maye seli həm çiləyici ştanqın en götürümü, həm də cərgə boyu-çox böyük ekoloji və iqtisadi göstəricilərə səbəb olan qeyri-bərabər sıxlıqla paylandığından təklif olunan intiqal mexanizmindən böyük en götürümlü çiləyicilərdə, həmçinin digər analoji proseslərin həyata keçirilməsində də istifadə etmək olar.

ELMİ İŞ beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 1 ISSN: 2663-4619
SCIENTIFIC WORK international scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue: 1 e-ISSN: 2708-986X

a) $\alpha=0$




b) $\alpha_1 \neq 0$




c) $\alpha_2 \neq 0$




**Şəkil 1. Yük avtomobili yedəyinin vəziyyətinin avtomatik tənzimlənməsi üçün intiqal mexanizminin avtomobil üzərində quraşdırıldığı vəziyyətdə yolun eni üzrə (avtomobilə arxadan baxdıqda) yolun relyefindən asılı olaraq avtomobilin vəziyyətləri**




**Şəkil 2. Yük avtomobili yedəyinin vəziyyətinin avtomatik tənzimlənməsi üçün intiqal mexanizminin avtomobil üzərində quraşdırıldığı vəziyyətdə yol boyu (avtomobilə yandan baxdıqda) yolun relyefindən asılı olaraq avtomobilin vəziyyətləri**

$a')\ \beta = 0 \qquad b')\ \beta_1 \neq c \qquad c')\ \beta_2 \neq 0$




**Şəkil 3. Siqnal qurğusunun yandan görünüşü, (A -şəkil 1a)**




**Şəkil 4. Siqnal qurğusunun arxadan görünüşü (B -şəkil 3)**




**Şəkil 5. Çoxbəndli oynaqlı fəza mexanizminin kombinə edilmiş oymaqla və siqnal qurğusunun lingi ilə sərt əlaqədə olan sonsuz vint reduktorlarının ümumi görünüşü**




**Şəkil 6. Avtomobilin yedəyini onun arxa təkərinin oxu ilə əlaqələndirən çoxbəndli oynaqlı fəza mexanizminin ümumi görünüşü (I qopartması)**

## References


1. V.İ.Berezovski "Stabilləşdirici qurğu". Rusiya Paten və Əmtəə Nişanları Agentliyi RU.№ 93013916; B 61F 5/02. 10.10.1995. 8 səh.
2. Ş.M.Babayev və b. "Yük avtomobili yedəyinin stabilləşdirici qurğusu". AzR. Əqli Mülkiyyət Agentliyi. Patent. İxtira. İ 2020 0038. Bakı 2020. 10 səh.
3. S. K. Gözəlov, B. F. Namazov, Ş. H. Həsənov, R. T. Məmmədov "Avtomobilin konstruksiya xüsusiyyətləri" Bakı 2014.
4. M.K. Kərimov - Bakı: " Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 2010. - II cild, 604 s.
5. Долматовский Ю. А. "Автомобиль за" 100 лет. М. 1986
6. Məmmədov Y. Ə. "Avtomobil nəqliyyat vasitələrinin istismar xüsusiyyətləri nəzəriyyəsi və hesabatı". Bakı 2005.
7. Ə.Ə.Cavadov "Avtomobil yük daşımaları" dərslik Bakı, N.P.M. "Təhsil" 2009, 354 s
8. М.С.Ходош «Грузовые автомобилные перевозии» М.Транспорт 1986
9. Л.Л.Афанасьев и др. «ЕТС и автоперевозии» М.Транспорт 1984
10. Troitskaya N.A. Vahid nəqliyyat sistemi: tələbələr üçün bir dərslik. Təşkilatlar prof. təhsil / N.A. Troitskaya, A.B. Çubukov. - 9-cu ed. - M.: "Akademiya" Nəşriyyat Mərkəzi, 2014. - 240 s.
11. Lavrinenko L. L. Avtomobil drginin tədqiqatları və dizaynı: Texniki məktəblər üçün dərslik. - M .: Nəqliyyat, 2011. - 296 s.
12. Podolsky Vl. P. Yol tikintisinin texnologiyası və təşkili. T. 1: Subqrad: dərslik. Faydalı / Vl. P. Podolski, A.V. Glagoliev, P.I. Pospelov, Voronej. dövlət memar qurmaq Univ., Mosk. avtomobil-dor. İnstitut, ed. prof. Vl. P. Podolski. - Voronej: Voronej nəşriyyatı. dövlət Universitet, 2005 .-- 528 s.


Göndərilib: 20.12.2021 Qəbul edilib: 09.01.2022

DOI: https://www.doi.org/10.36719/2663-4619/74/80-86

**Kamran Vüqar oğlu Qasımzadə**
Azərbaycan Texnologiya Universiteti
magistrant
Qasimzadekamran402@gmail.com

# AZƏRBAYCANDA GÜNƏŞ FOTOVOLTAİK ENERJİSİNDƏN İSTİFADƏ

**Xülasə**

Mövcud ehtiyatlar daim artan enerji tələbatını ödəmək üçün yetərli olmadığından, alternativ enerji mənbələrinin araşdırılması və inkişafı səyləri daha da sürətlənib. Dünyada ətraf mühitin mühafizəsi, iqlim dəyişikliyinin yaratdığı zərərli təsirlər, eləcə də enerji istehsalı və istehlakının ətraf mühitə vurduğu zərərin azaldılması kimi məsələlər bütün bəşəriyyət üzərinə məsuliyyət qoyur. Bu məsuliyyətin tələbi olaraq, milli və beynəlxalq hüquqi tənzimləmələrin edilməsi, enerji istehsalı texnologiyaları və resurs seçimində ətraf mühitə təsirlərin nəzərə alınması, enerji istifadəsində səmərəliliyə maksimum diqqət yetirilməsi kimi məsələlər üstünlük qazanır.

Bu məqalədə, Bərpa olunan enerji mənbələri arasında xüsusi yeri olan Günəş və günəş enerjisi, istifadə olunan texnologiyalar, Azərbaycanda günəş enerjisi potensialı, bu sahədə olan inkişafdan bəhs olunmuşdur.

***Açar sözlər:****Günəş, günəş enerjisi, günəş panelləri, fotovoltaik sistemlər, bərpa olunan enerji*

**Kamran Vugar Gasimzade**

## Use of solar photovoltaic energy in Azerbaijan

**Abstract**

Efforts to explore and develop alternative energy sources have accelerated as existing resources are not enough to meet ever-increasing energy needs. In the world, issues such as environmental protection, the harmful effects of climate change, as well as reducing the damage caused by energy production and consumption to the environment are the responsibility of all mankind. As a requirement of this responsibility, issues such as national and international legal regulations, taking into account the impact on the environment in the selection of energy production technologies and resources, and maximum attention to energy efficiency are prevailing.

This article discusses solar and solar energy, which have a special place among renewable energy sources, the technologies used, the potential of solar energy in Azerbaijan, and the development in this area.

***Key words****: Solar, solar energy, solar panels, photovoltaic systems, renewable energy*

## Giriş

Müasir dövrdə qalıq ehtiyatlarının yəni, neft, kömür, təbii qazın məhdud və əvəzolunmaz enerji mənbəyi olması, istehsalı və istehlakı nəticəsində ətraf-mühitin çirklənməsi bərpa olunan, qeyri-məhdud, ekoloji cəhətdən təmiz mənbələrin və texnologiyaların tədqiqini və inkişaf etdirilməsini zəruri edir. Buna görə də bərpa olunan enerji mənbələri, o cümlədən günəş enerjisi əhəmiyyət qazanmışdır.

Günəş enerjisi potensialına, istifadə asanlığı, təmizliyi və yenilənə bilməsi kimi səbəblərə görə digər bərpa olunan enerji mənbələrindən daha asan yayılma vəziyyətindədir. Digər enerji mənbələri ilə müqayisədə daha az quraşdırma xərcləri, daha çox səmərəlilik, tutum əmsalı və bəzi oxşar texnoloji və iqtisadi üstünlüklər günəş enerjisini gələcəkdə daha da cəlbedici edəcəkdir. Azərbaycan günəş enerjisi baxımından çox əlverişli mövqedə olsa da, hazırda bu potensialdan kifayət qədər istifadə edilməyib.

## Günəş Enerjisi haqqında ümumi məlumat

Günəşdən dünyaya 150 milyon km yol qət edərək gələn enerji, dünyada bir ildə istifadə olunan enerjidən təxminən 15 min dəfə çoxdur. Atmosferdən kənar günəş enerjisinin radiasiya dəyəri təxminən 1370 $Vt/m^2$ təşkil edir. Günəş enerjisinin yer üzündə paylanması yerin formasına görə çox dəyişir və yerə gələn təqribi günəş enerjisi 0 – 1,100 $Vt/m^2$ arasındadır. Günəş radiasiya enerjisinin 46%-i spektrin infraqırmızı hissəsində, 45%-i görünən işıq hissəsində, qalan faizi isə ultrabənövşəyi hissədə olur.

Günəş radiasiyasının heç də hamısı yer səthinə çatmır, 30%-i yer atmosferi tərəfindən geri əks olunur, 50%-i atmosferdən keçərək yer səthinə çatır. Günəşdən gələn radiasiyanın 20%-i atmosferdə və buludlarda saxlanılır. Bu enerji ilə Yerin temperaturu yüksəlir və yer üzündə həyat mümkün olur. Külək hərəkətləri və okean dalğaları da bu istiləşmədən qaynaqlanır. Yer səthinə gələn günəş radiasiyasının 1%-dən az hissəsi bitkilər tərəfindən fotosintez prosesində istifadə olunur. Bitkilər fotosintez zamanı günəş işığı ilə birlikdə karbon qazı və sudan istifadə edərək oksigen və şəkər istehsal edirlər. Fotosintez yer üzündəki bitki həyatının mənbəyidir. Yerə gələn bütün günəş radiasiyası sonda istiliyə çevrilir və kosmosa qaytarılır.

Günəş enerjisindən istifadə ilə bağlı tədqiqatlar xüsusilə, 1970-ci illərdən sonra geniş vüsət almış, günəş enerjisi sistemləri, texnoloji tərəqqinin inkişafı və maya dəyərinin azalması nəticəsində günəş enerjisi özünü ekoloji cəhətdən təmiz enerji mənbəyi kimi təsdiqləmişdir. (Dünya Enerji Şurası Türk Milli Komitəsi, 2009).

## Günəş enerji mənbəyi kimi

Keçmişdə və bu gün istifadə etdiyimiz bütün enerjilərin mənbəyi günəşdir. Kosmik təkamül prosesində karbon atomlarının əmələ gəlməsi ilə başlayan üzvi maddələr günəş şüalarından aldıqları enerjini fotosintez yolu ilə gövdələrində, budaqlarında və yarpaqlarında toplayırdılar. Geoloji dövrlərdə bütün canlılar, o cümlədən bitkilər, yəni üzvi strukturlar müxtəlif fiziki, kimyəvi və geoloji dəyişikliklər nəticəsində yeri təşkil edən təbəqələrin altında qalaraq kömür, neft və təbii qazı əmələ gətirmişdir. Fosil yanacaq kimi tanınan kömür, neft və təbii qaz, əslində günəş enerjisinin formalarıdır.

Qurunun isinmə temperaturu dənizlərin isinmə temperaturundan yüksəkdir. Nəticədə quru dənizdən daha tez isinir. Quruda hava qızdıqda temperatur yüksəldikcə onun sıxlığı azalır və vakuum yaranır. Dənizlər qurudan gec isindiyi üçün onların üstündəki hava quruda əmələ gələn boşluğu doldurmaq üçün quruya doğru hərəkət edir və külək baş verir. Göründüyü kimi, küləyi yaradan günəşdir.

Günəş enerjisini işıq vasitəsilə yayır. Yerin orbital radiusu təxminən 150 milyon kilometrdir. Yəni bu uzun məsafəni 8 dəqiqəyə qət etməklə günəşdən dünyamıza enerji gəlir. Hər dəfə günəşə baxanda onun 8 dəqiqə əvvəlki halını görürük. Bu qədər uzun məsafəyə baxmayaraq, yer günəş şüalarından gələn enerjini 40 dəqiqəyə udur ki, bu da bir ildə yer üzündə sərf olunan ümumi enerjiyə bərabərdir. Ona görə də bu enerjidən faydalanmağın yollarını araşdırmaq qədər doğru bir şey ola bilməz. Bəlkə də qədim sivilizasiyaların günəşə sitayiş etmələrinin səbəbi onun böyük gücü idi.

Müxtəlif üsullarla ölçülən Günəşin temperaturu 5800 °C-dir. Belə bir isti obyektin gücü, yəni bir saniyədə yayılan şüa enerjisi təxminən 4 x 1023 kVt-dır. Bu, *400 trilyon x 1 trilyon* 100 vattlıq işıq lampasının gücünə bərabərdir. Günəşi kürə şəklində düşünsək (təqribən kürə şəklindədir), o, öz enerjisini bütün istiqamətlərə bərabər şəkildə yayır. Atmosferdə udulduqdan sonra yerin hər kvadrat metrinə düşən güc orta hesabla təxminən 1000 $Vt/m^2$ təşkil edir.

Radiasiyanı başa düşmədən günəş enerjisinin nə olduğunu anlamaq və ondan faydalanmaq mümkün deyil. Radiasiyanın nə olduğuna qısaca nəzər salaq.

Ümumiyyətlə radiasiya, xüsusən də işıq elektromaqnit dalğasıdır. Elektromaqnit dalğası isə enerjinin elektrik və maqnit sahələrinin perpendikulyar müstəvilərdə dalğa hərəkəti edərək yayılmasıdır. Fiziologiyamız işıq kimi gözümüzə gələn dalğanın daşıdığı enerjini beynimizdəki görüntüyə çevirir. Həm dəniz dalğaları, həm də səs dalğaları ümumiyyətlə isə bütün növ dalğalar enerji daşıyır. Dəniz kənarında qayalara dəyən dalğalara və ya nəhəng dalğa növü olan sunamiyə enerji kimi

baxdıqda, dalğa hərəkəti ilə enerji arasındakı əlaqə dərhal başa düşülür. Günəşdən yerə enerjini elektromaqnit dalğalar yəni, günəş şüaları dəniz dalğalarının sahillərə daşıdığı kinetik enerji kimi daşıyır.

Elektromaqnit dalğalarının spektri bir-birindən vibrasiya tezlikləri ilə ayrılmış bir neçə zolaqdan ibarətdir. Rabitə zolaqları, radio, ratsiya, radar zolaqları, infraqırmızı, görünən işıq, ultrabənövşəyi, X və ya qamma şüaları tezlik sırasına görə kiçikdən böyüyə sıralanır. Görünən işıq spektrin çox dar diapazonunda yerləşir. Günəş şüaları ümumiyyətlə qırmızı işıqdan başlayaraq görünür, ultrabənövşəyi, X, qamma şüaları daxildir. Xüsusilə, günəş işığının ultrabənövşəyi, X və qamma şüaları kimi yüksək tezlikli, yəni kiçik dalğa uzunluğuna malik komponentləri maddə ilə qarşılıqlı əlaqədə olduqda hissəciklər kimi fəaliyyət göstərir və dalğa hərəkəti ilə bir nöqtədən digərinə keçir. Bu hissəciklərə fotonlar deyilir ki, bu da şüalanma enerji paketi deməkdir. Günəş enerjisindən faydalanmaq günəş şüalarının tərkibində hissəcik xarakteri daşıyan yüksək tezlikli komponentlərin (yəni foton) olması ilə bağlıdır.

Elektromaqnit spektrinin fiziki xüsusiyyətlərini dərk etmədən günəş şüalarının elektrik cərəyanına necə çevrildiyini anlamaq mümkün deyil.

Günəş şüaları hər dəqiqə qlobal enerji istehlakından daha çox enerjini yer üzünə daşıyır. Günəş enerjisinin çox hissəsini görünən işıq zolağında (2 x 10-7 ilə 4 x 10-6 metr dalğa uzunluğu arasında) yayır. Yerin temperaturunu yayılan bu enerji təyin edir. Görünən bölgə elektromaqnit spektrinin dar bir bölgəsinə uyğundur. Bənövşəyi və infraqırmızı zolaqlarda yayılma günəş enerjisindən istifadə baxımından vacibdir. Dalğa uzunluğu azalıb tezlik artdıqca şüaların daşıdığı enerjinin miqdarı da artır. Günəş spektrindəki ultrabənövşəyi şüa günəş batareyalarının üzərinə düşəndə o, elektrik cərəyanına çevrilir. Görünən zolağın aşağı tezlikli ucunda yerləşən infraqırmızı şüalar istilik enerjisini daşıyır. (Dünya Enerji Şurası Türk Milli Komitəsi)

Günəş orta ölçülü və orta yaşlı ulduzdur. 4,5 milyarda yaxın yaşı var və bundan sonra 4,5 milyard il mövcud olacağı gözlənilir. Günəş planetimizi və ətrafında fırlanan digər planetləri istilik və işıq enerjisi ilə təmin edir. Günəşin kütləsinin təxminən 80%-ni hidrogen, 20%-ni helium elementi və ancaq 0,1%-ni isə digər elementlər təşkil edir. (MƏMMƏDOV, 2021)

Buradan göründüyü kimi, Günəş əsasən Hidrogen və Heliumdan ibarətdir. Günəşdə hər saniyə hidrogen atomları birləşərək Helium əmələ gətirir. Yəni burada nüvə-sintez (birləşmə) reaksiyası gedir. Daha xırda nüvələr birləşərək daha böyük nüvələr əmələ gətirirlər. Nəticədə küllü miqdarda istilik və işıq enerjisi ayrılır. Bunun nəticəsində də günəş planetimizi və ətrafında fırlanan digər planetləri istilik və işıq enerjisi ilə təmin edir. (Mikayılov, 24 aprel 2020)

Günəş enerjisi göstəriciləri meteoroloji amillərin təsiri ilə dəyişə bilər. Bu amillərə havanın temperaturu, atmosfer təzyiqi, havanın nəmliyi, küləyin sürəti və istiqaməti, buludluluq, yağıntılar, atmosferin şəffaflığı, günəş radiasiyası və bu kimi amilləri misal göstərmək mümkündür. (CƏLİLOV, 2009)

Günəşdən gələn enerji istilik və işıq enerjisi kimi növlərə bölündüyündən, günəş energetik qurğuları da iki yerə bölünür.




Ümumiyyətlə günəş enerjisindən dünya təcrübəsində kollektorlar vasitəsilə isti suyun, fotovoltaik panellər vasitəsilə elektrik enerjisinin alınmasıda, evlərin və ya tikililərin isidilməsində, soyutma sistemlərində, meyvələrin qurudulmasında, duzlu suların şirinləşdirilməsində istifadə olunur. (CƏLİLOV, 2009)




## Günəş panelləri

Günəş energetikasında ən geniş istifadə olunan çeviricilərdən biri də fotovoltaik (PV) günəş elementləridir. Fotoelementlər ilk dəfə olaraq ABŞ-da yaradılmış və hərbi məqsədlər üçün, xüsusən də kosmik aparatların elektrik təchizatı üçün nəzərdə tutulmuşdur. Fotoelementlər günəş enerjisini birbaşa elektrik enerjisinə çevirməklə ən geniş istifadə olunan günəş energetik qurğularıdır. (MƏMMƏDOV, 2011)

Günəş panelləri səthlərinə düşən günəş işığını birbaşa elektrik enerjisinə çevirən yarımkeçirici maddələrdir. Səthləri kvadrat, düzbucaqlı, dairəvi formada olan günəş panelləri hücrələrinin sahələri təxminən 100 $sm^2$ qalınlığı ən çox yayılmış silisyum günəş panellərində 0,2–0,4 mm arasındadır.

Dəniz səviyyəsində, parlaq, buludsuz bir gündə radiasiya intensivliyi maksimum 1000 $Vt/m^2$ təşkil edir. Ərazidən asılı olaraq 1 $m^2$ -ə düşən günəş enerjisinin miqdarı ildə 800-2600 kVt/saat arasında dəyişir. Bu enerji günəş panelinin quruluşundan asılı olaraq 5% ilə 70% arasında səmərəliliklə elektrik enerjisinə çevrilə bilər.

Çıxış gücünü artırmaq üçün çox sayda günəş paneli paralel və ya ardıcıl olaraq bir-birinə bağlanır və səthə quraşdırılır. Bu quruluş günəş paneli modulu və ya fotovoltaik modul adlanır. Lazım gələrsə, bu modullar fotovoltaik massiv (stansiya) yaratmaq üçün bir-birinə ardıcıl və ya paralel olaraq birləşdirilə bilər. (KARAMANAV, 2007)

Panellər elektrik enerjisinin tələb olunduğu bütün yerlərdə tətbiq edilə bilər. Tətbiqindən asılı olaraq fotovoltaik modullar akkumulyatorlar, çeviricilər, panellər, şarj tənzimləyiciləri və müxtəlif elektron dəstək sxemləri ilə birlikdə istifadə edərək bir fotovoltaik sistem təşkil edir. Əvvəllər bu sistemlər yalnız yaşayış məntəqələrindən uzaq, elektrik şəbəkəsi olmayan ərazilərdə, yanacağın generatora daşınmasının çətin və baha başa gəldiyi situasiyalarda istifadə olunduğu halda, indi şəbəkəyə qoşulmuş yaşayış məntəqələrində, evlərin damlarında və iri miqyaslı elektrik stansiyalarında da geniş istifadə olunur.

Günəş panelləri Günəşin istiliyi deyil, işıq enerjisi hesabına fəaliyyət göstərən cihazlardır. Müasir dövrdə günəş enerjisinin istehlakında daha çox istifadə edilməsinin səbəbi burada faydalı iş əmsalının yuxarı olmasıdır. (Mikayılov, 24 aprel 2020)

## Azərbaycanda Günəş Enerjisi

Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı 26 940 MVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 040 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. (Azərbaycan Respublikası Energetika Nazirliyi, 2020)

Dünyada geniş tətbiq olunan Günəş panelləri ölkəmizdə uzun müddət olmasa da son 10 illikdə tətbiq olunmağa başlanmış, həm böyük miqyaslı günəş elektrik stansiyalarında, həm də ev sistemlərində quraşdırılmışdır. Artıq günəş panelləri quraşdıran və texniki xidmət göstərən şirkətlər formalaşıb. (Mikayılov, 24 aprel 2020)

Respublikamızda qoyuluş gücü 1 mVt-dan çox olan 11 Günəş Elektrik Stansiyası fəaliyyət göstərir. Bu stansiyaların yerləşdikləri ərazilərə baxdıqda daha çox neft, çirkab suları, bərk məişət və tikinti tullantıları ilə ekoloji cəhətdən çirklənmiş ərazilər olduğu nəzərə çarpır. Bu ərazilərin təmizlənməsi və burada bərpa olunan enerji mənbələrinin yaradılması ekologiyanın bərpasına, təmiz enerji istehsalına xidmət edir. Bundan başqa ölkəmizdə digər ölkələrin təcrübəsindən istifadə olunmaqla Üzən Günəş Stansiyaları kimi layihələr də həyata keçirilir ki, bu da müsbət haldır.

Energetika Nazirliyinin mətbuat katibi Cahid Mikayılov ” Bu layihə pilot layihədir və gələcək layihələr üçün nümunə rolunu oynadığından Bakı şəhərində olması daha məqsədəuyğun idi. Yerləşdiyi mövqe və flora-fauna baxımından seçilmişdir.

Günəş stansiyasının ümumi gücü 100 kvt təşkil edir. Ümumi gücün 95 kvt-ı suda, 5 kvt-ı isə quruda quraşdırılacaq. Burada məqsəd göstəriciləri müqayisə etmək, iş əmsalını və səmərəliliyi dəqiq hesablamaqdır. Elə düşünə bilərsiniz ki, temperatur yüksəkdirsə daha çox elektrik enerjisi əldə etmək mümkündür. Amma əslində bu belə deyil. Çünki fotovoltaik texnologiyasında günəşin daha çox işığından istifadə olunur. Yəni temperatur nə qədər yüksəkdirsə bu bizim ziyanımızadır, effektivlik o qədər aşağı düşür. Ancaq su səthi daha gec qızdığından, su üzərində qurulan günəş panelləri daha çox enerji əldə etməyə imkan verir. Ölkəmizdə ilk dəfə olaraq sınaqdan keçirilir. Artıq dünyanın bir çox yerlərində quraşdırılmış bu sistem öz nəticəsini verib. Su burada təbii soyutma sistemi rolunu oynayır. Stansiyadan əldə olunmuş elektrik enerjisinin yaxın ərazilərə göndərilməsi nəzərdə tutulur.”

| Adı | Yerləşdiyi ərazi | Gücü (mVt) | İstifadəyə verildiyi il | Müqavilə tərəfləri |
|---|---|---|---|---|
| Səngəçal GES | Qaradağ ray., Səngəçal qəs. | **9** | 2016 | “Azalternativenerji” MMC tərəfindən |
| Qobustan Eksperimental Poliqonu və tədris mərkəzi | Qobustan ray. | **3** | 2011 | "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqrami"na uyğun olaraq |
| Sahil GES | Qaradağ ray., Sahil qəs. | **3** | 2016 | “Azalternativenerji” MMC tərəfindən |
| Pirallahı GES | Pirallahı ray. | **2,8** | 2014 | “Azalternativenerji” MMC tərəfindən |

| | | | | | |
|---|---|---|---|---|---|
| Suraxanı GES | Suraxanı ray. | **2,8** | 2014 | “Azalternativenerji” MMC tərəfindən | |
| Sumqayıt GES | Sumqayıt şəh. | **2.8** | 2015 | “Azalternativenerji” tərəfindən | |
| Samux Aqroenerji Yaşayış Kompleksi | Samux ray.. | **2.8** | 2015 | NAMA (Ölkə üzrə Müvafiq Yumşaldıcı Tədbirlər) proqramı çərçivəsində | |
| Qala Ekoloji Parkı | Xəzər ray., Qala qəs. | **0.06** (0.04 külək, 0.02 günəş) | 2011 | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən salınan | |
| Xal-xal GES | Naxçıvan, Babək ray., Xal-Xal k-di | 20 (2015) + 2 (2017) = **22** (mVt) | 2015 | Naxçıvan MR Dövlət Energetika Agentliyi | Belçika Krallığının “Soltech” şirkəti |
| Qabıllı GES | Naxçıvan, Kəngərli ray., Qabıllı k-di | 2 (2019) + 3 (2020) = **5** | 2019 | Naxçıvan MR Dövlət Energetika Agentliyi | İsveçrənin “Pure Energy Development” SARL Şirkəti |
| Zeyvə GES | Naxçıvan, Şərur ray, Zeyvə k-di | **5** | 2021 | Naxçıvan MR Dövlət Energetika Agentliyi | İsveçrənin “Pure Energy Development” SARL Şirkəti |
| Culfa Külək-Günəş Hibrid ES | Naxçıvan, Culfa ray. | **1,1** (0,82 günəş, 0,06 kvt, külək) | 2021 | Naxçıvan MR Dövlət Energetika Agentliyi | Çin Xalq Respublikası Ticarət Nazirliyi (qrant layihəsi) |




Dövlət tərəfindən “Ucqar ərazilərdə səyyar alternativ və bərpa olunan enerji stansiyalarının quraşdırılması layihəsi”, Biləsuvarda 6 məktəb və 6 uşaq bağçası, Qubada "Ağıllı bağ", Masallıda Qapalı idman meydançası, Türkan qəsəbəsində internat məktəbi, Hövsan qəsəbəsində uşaq poliklinikası, Bakıdakı 235, 149, 320, 311 nömrəli məktəblərdə günəş enerjisi ilə bağlı layihələr həyata keçirilmişdir. Bu layihələrdə ucqar rayonlarda və elektriklə təmin olunmayan ərazilərdə günəş panellərindən alınan enerji vasitəsilə elektrik verilmiş, subartezian quyularının həmin elektriklə işləməsinə şərait yaradılmışdır. Ölkəmizdə günəş panelləri təkcə dövlət tərəfindən

quraşdırılmamış, fərdi şəxslər də öz təsərrüfatlarında fotovoltaik sistemlərdən istifadə etmişdir. (AZGÜNTEX MMC, 2020)

Ölkəmizdə günəş panellərinin yerli istehsalı məqsədilə Sumqayıt şəhərində "Azgüntex" MMC iki istehsal xətti üzrə fəaliyyət göstərir. Burada həm Günəş modulları, həm də LED lampaları istehsal olunur. Hətta zavodun elektrik enerjisinə tələbatını ödəmək üçün Günəş Elektrik Stansiyası da qurulmuşdur. İstehsal olunan günəş panellərindən Suraxanı, Pirallahı Günəş Elektrik Stansiyalarında istifadə olunmuşdur. Bundan başqa ölkədə özəl günəş panelləri quraşdıran və onlara texniki xidmət göstərən şirkətlərin sayı da artır. (AZGÜNTEX MMC, 2020)

İşğaldan azad olunmuş ərazilərin təsdiq olunmuş Günəş enerjisi potensialı 7200 mVt hesab olunur. Bu məqsədlə Cəbrayıl və Zəngilanda Günəş Elektrik Stansiyalarının tikintisi planlaşdırılır. Ümumiyyətlə ölkə üzrə elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması nəzərdə tutulur ki, 2020-ci ildə bu rəqəm təqribən 5.5%-ə bərabər olmuşdur. (Azərbaycan Respublikasının Energetika Nazirliyi, 2020)

## Nəticə

Günəş enerjisi tükənməyən enerji mənbəyidir, Bərpa olunan enerji mənbələri, xüsusilə də günəş enerjisi ölkəmiz üçün çox vacibdir. Ölkəmizdə Günəş enerjisi potensialı kifayət qədər olsa da, bu potensialın hələ də çox az bir hissəsindən istifadə olunmuşdur. Bu potensialdan maksimum səviyyədə istifadə etməklə həm enerji istehsalına dəstək, həm də ekoloji sağlam enerjidən istifadəyə üstünlük verilməlidir. Təsərrüfatla məşğul olan şəxslərin bu enerji mənbəyindən daha çox məlumatlandırılmasını təmin etmək və bu sahə ilə məşğul olanların təşviqi həyata keçirilməlidir.

Günəş enerjisindən əldə edilən elektrik heç bir şəbəkəyə bağlı olmadan istifadə edilə bildiyindən əlverişsiz ərazilərdə daha rahat tətbiq oluna bilir.

Ölkəmizdə günəş enerjisi və bu enerjidən faydalanmağın yollarını öyrənmək məqsədilə universitetlərdə mərkəzlər yaradılmalı və burada araşdırmalar aparılmalıdır.

## References

1. Dünya Enerji Şurası Türk Milli Komitəsi. (2009). Dünyada və Türkiyədə Günəş enerjisi.
2. Məmmədov F. (2011). Azərbaycanda Günəş enerjisindən istifadə və müasir günəş energetik qurğuları. Bakı: Proqres.
3. Mikayılov M.E. C. (24 aprel 2020). Günəş fotovoltaik (PV) texnologiyası. Vebinar-Günəş fotovoltaik (PV) texnologiyası. ALREN Azerbaijan: https://www.youtube.com/watch?v=S8E-_Wk8feY.
4. CƏLILOV M. (2009). ALTERNATIV REGENERATIV ENERJI SISTEMLƏRI. Bakı: NPM «Təhsil».
5. KARAMANAV, M. (2007). GÜNEŞ ENERJİSİ VE GÜNEŞ PİLLERİ. T.C.SAKARYA ÜNİVERSİTESİ FEN BİLİMLERİ ENSTİTÜSÜ, 7-8.
6. Azərbaycan Respublikası Energetika Nazirliyi. (2020). Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə. Energetika Nazirliyi 2020: https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade.
7. AZGÜNTEX MMC. (2020). AZGÜNTEX. Layihələr. https://www.azguntex.az/az/content/25.
8. AZGÜNTEX MMC. (2020). AZGÜNTEX.Şirkət haqqında. https://www.azguntex.az/az/content/1.
9. Azərbaycan Respublikası Energetika Nazirliyi. (2020). Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə. Energetika Nazirliyi 2020: https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade.
10. Chiras, D. (2020). *Solar Electricity Basics (2nd Edition).* Canada: New society publishers.
11. Baez, J. 2013. "Photovoltaic Solar Power," http://www.azimuthproject.org/azimuth/show/Photovoltaic+solar+power
12. https://www.ises.org/

**Rəyçi: dos. Ə.Qurbanəliyev**

Göndərilib: 17.12.2021 Qəbul edilib: 05.01.2022

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
### HUMANITIES AND SOCIAL SCIENCES


**Ələkbər Həsən oğlu Cabbarlı**
Naxçıvan tarixinə bir nəzər ........ **7**
**Vasiliy Nikolayevich Hapov**
Painting - the art of color ........ 15
**Həqiqət Mahmud qızı Məmmədova, Fəxriyyə İbrahim qızı Cəfərova**
Bəxtiyar Vahabzadə və dilimiz ........ 21
**Səbinə Namiq qızı Cəfərova**
"Əkinçi" qəzetində dərc olunan məqalələrin Azərbaycanda ailə tərbiyəsinin inkişafina təsiri ........ 26
**Natiq Elxan oğlu Huseynov**
Süni intellektin brendinqə təsirləri ........ 31
**Kifayət Qurban qızı Mənsimova**
İnkluziv təhsilin nəzəri əsaslarına dair ........ 39
**Yaqut Ömər qızı Mustafayeva, Xanım Ağasəf qızı Qasımova**
Dərslik müzakirəsi. Ədəbiyyat: x sinif ........ 45
**Chingiz Davidov, Wang Siming**
Bread history in Azerbaijan ........ 52
**Sirus Rafiq Asgarov**
What are the benefits of the taliban's return to power for the major powers? ........ 58


## TƏBİƏT ELMLƏRİ
### NATURAL SCIENCES


**Sevda Alifaga Muslimova, Nushaba Fizuli Alishova, Ilhama Malik Karimova, Raida Vazirova**
Papillomavirus infection and cervical pathology ........ 63
**Nurana Ariz Hamidova**
New approaches and all-round overviews to the menstrual cycle and female genital hormones comparably in women of different age groups (reproductive and menopausal) in COVİD-19 ........ 68


## TEXNİKA ELMLƏRİ
### TECHNICAL SCIENCES


**Şahlar Mahmud oğlu Babayev**
Yük avtomobilinin hərəkəti zamanı yedəyinin vəziyyətinin avtomatik tənzimlənməsi üçün intiqal mexanizminin işlənməsi ........ 73
**Kamran Vüqar oğlu Qasımzadə**
Azərbaycanda günəş fotovoltaik enerjisindən istifadə ........ 80

Çapa imzalanmışdır: 17.01.2022
Kağız formatı: 60/84
H/n həcmi: 9,6 ç.v.
Sifariş: 465

“ZƏNGƏZURDA” çap evində çap olunub
**Redaksiya ünvanı:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru